HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 aprel 2016-cı il

№007 (21)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## TƏBRİZ MUSAZADƏ YAQUBLU KƏNDİNİN ÜÇÜNCÜ ŞƏHİD OĞLUDUR



Qarabağ müharibəsində iki şəhid verən Yaqublu kəndinin üçüncü şəhidi Təbriz Musazadədir. Dmanisidə dünyaya göz açan Təbriz 4-cü sinfi bitirənə qədər rayondakı rusdilli məktəbdə təhsil alıb. Daha sonra Azərbaycana yollanan Təbriz orta məktəbi Bakı şəhərində bitirib, 1996-99-cu illərdə Naxçıvanski adına hərbi liseydə, 1999-2003-cü illərdə H.Əliyev adına Ali Hərbi Təyyarəçilik Məktəbində təhsil alıb. Mayor rütbəsinədək yüksələn hərbçi 35 yaşında ikən qəhrəmancasına həlak olub.

Həyatının ilk 10 ilini yaşadığı, hər il məzuniyyətini keçirdiyi Yaqublu kəndi, buradakı doğma ata ocağı Təbrizin qohumlarının, yaxınlarının ziyarət yerinə çevrilib. Təbriz Musazadənin iki oğlu da atalarının yolunu davam etdirmək niyyətindədirlər.

Vətənin azadlığı uğurunda şəhid olmuş Təbrizə Allahdan rəhmət diləyirik, onun yaxınlarına və doğmalarına başsağlığı veririk.

## İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ İSTANBULDA ZİRVƏ TOPLANTISI KEÇİRİLDİ



İslam Əməkdaşlıq Təşkilatının (İƏT) 13-cü zirvə toplantısı 10-15 aprel 2016-cı il tarixində İƏT-a üzv olan ölkələrin dövlət və hökumət başçılarının iştirakı ilə İstanbulda gerçəkləşib.

İƏT-nın Zirvə toplantısı hər üç ildən bir toplanaraq siyasi, iqtisadi və ictimai sahələrdə İslam ölkələri üçün ortaq hesab esilən beynəlxalq vəziyyətin nəzərdən keçirilməsi və onun İslam əhalisinə təsirini analiz etmək məqsədi daşıyır.

Bundan əvvəlki toplantı 6-7 fevral 2013-cü il tarixində Misirin paytaxtı Qahirədə keçirilmişdir.

## ÜÇTƏRƏFLİ AZƏRBAYCAN – GÜRCÜSTAN – TÜRKİYƏ FORMATI REGİONDA TƏHLÜKƏSİZLİYƏ XİDMƏT EDİR

Üçtərəfli Azərbaycan – İran – Rusiya və Azərbaycan – Gürcüstan – Türkiyə formatı regionda təhlükəsizliyə və əməkdaşlığın dərinləşməsinə xidmət edir. Bunu aprelin 9-da Azərbaycan prezidenti İlham Əliyev hökumətin 2016-cı ilin birinci kvartalında sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında bəyan edib. Bu barədə RİA Novosti agentliyi məlumat yayıb.

DÖRDGÜNLÜK MÜHARİBƏNİN YARATDIĞI REZONANS — 2

İKİNCİ QARABAĞ MÜHARİBƏSİ BAŞLADIMI? — 3

MÖVLÜD QƏNDİLİ HAQQINDA BİR NEÇƏ SÖZ — 4

NƏRİMAN NƏRİMANOVDAN SONRAKI NƏRİMAN – ƏBDÜLRƏHMANLI — 5

DÜNYANIN DADİ-BÜSAT ÇÖMÇƏSİ (Aşıq Hüseyn Saraclı üçün ucqar havası) — 6

GÜRCÜSTANIN İLLÜSTRASİYALAŞDIRILMIŞ TARİXİ — 7

TBİLİSİDƏ MİLLİ FOLKLOR FESTİVALI KEÇİRİLİB — 8

## BAŞ NAZİR: 9 APREL GÜRCÜ XALQININ DÜŞÜNCƏSİNİ DƏ DƏYİŞDİ



1989-cu ilin 9 aprel faciəsindən 27 il keçir. 1989-cu ilin 9 aprelində Tbilisinin mərkəzində, parlament binasının qarşısında SSRİ Müdafiə Nazirliyinin qoşunları tərəfindən dinc etiraz aksiyası dağıdıldı. Bu, dinc insanların həlak olması ilə nəticələndi.

Aksiyanın dağıdılması nəticəsində 21 nəfər həlak oldu, minlərlə adam qazla zəhərləndi.

Qeyd edək ki, 1991-ci ildə Gürcüstan Ali Soveti 9 apreli Gürcüstanın dövlət müstəqilliyinin bərpası günü elan etdi.

Tbilisidə 9 apreldə həlak olmuş qəhrəmanların Memorialı üzərinə çələng qoyan Gürcüstanın baş naziri Georgi Kvirikaşvili bəyan edib ki, 9 aprel yalın əllə tankları dayandırmağa cəhd edən gənc insanların qəhrəmanlıq tarixi kimi yadda qalacaq.

Georgi Kvirikaşvilinin sözlərinə görə, 9 aprel təkcə ölkənin inkişaf vektorunu deyil, həm də gürcü xalqının düşüncəsini dəyişdi.

## BAŞ NAZİR VƏ AZƏRBAYCANLI AĞSAQQALLAR ÖLKƏNİN GƏLƏCƏYİNİ MÜZAKİRƏ EDİBLƏR



Gürcüstan hökumətinin mətbuat xidməti yaydığı məlumatda bildirib ki, Gürcüstanın baş naziri Georgi Kvirikaşvili Gürcüstanda yaşayan azərbaycanlıların ağsaqqallar şurasının üzvləri ilə görüşərək, onlarla etnik azlıqların məsələlərini, həmçinin onların tam şəkildə cəmiyyətə inteqrasiyasının vacibliyini müzakirə edib.Kvirikaşvilinin sözlərinə görə, etnik azərbaycanlılar maksimum dərəcədə Gürcüstanın inkişaf prosesinə qoşulmalıdırlar.

“Bizim etnik azərbaycanlı vətəndaşlarımızın birliyi və onların ölkə quruculuğuna qoşulması vacibdir. Biz hamımız birlikdə bu gün baş verən mühüm proseslərdə iştirak etməliyik”, – hökumətin mətbuat xidməti baş nazirin sözlərini sitat gətirib.

## BRÜSSEL GÖRÜŞÜNDƏ ETNİK AZLIQLAR MƏSƏLƏSİ QALDIRILIDI

Gürsütanın azərbaycanlı, erməni və qaraçı icmalarının bir qrup nümayəndəsi mart ayında Avropa İttifaqının müvafiq hakimiyyət strukturlarını ölkədə etnik azlıqların vəziyyəti haqqında məlumatlandırmaq məqsədi ilə Brüsseldə olub. Onlar Aİ-nin xarici əlaqələr xidmətinin rəsmi şəxsləri ilə, genişlənmə və mehriban qonşuluq siyasəti məsələləri üzrə Baş direktoratla, beynəlxalq əməkdaşlıq və inkişaf məsələləri üzrə Baş direktoratla, eləcə də Aİ-dakı Gürcüstan nümayəndəliyi ilə görüşüblər.

Səfər Aİ-nın Şərq tərəfdaşlığı azlıqlar şəbəkəsinin (EaPMN) dəstəyi çərçivəsində təşkil olunub. Gürcü nümayəndə heyəti Aİ-nın Gürcüstanla və ümumilikdə Şərq tərəfdaşlığı ölkələrilə münasibətləri çərçivəsində milli azlıqların məsələlərinin həllinə necə kömək edə bilər sualını səsləndirməyə imkan tapıb.

Səfər Şərq tərəfdaşlığı vətəndaş cəmiyyəti Forumunun Katibliyində açıq mühazirə ilə başa çatıb. Bir qədər əvvəl burada Avropanın mehriban qonşuluq siyasətinə və Gürcüstan, Moldova və Ukrayna üçün onun mümkün nəticələrinə yenidən baxılması müzakirə edilmişdi.

EaPMN proqramı üç il üçün nəzərdə tutulub. Azərbaycan, Ermənistan, Belarus, Gürcüstan, Moldova və Ukraynanın 80-dən çox etnik azlıqlar təşkilatının vətəndaş fəallarını birləşdirir. Proqramın məqsədi bu regionlarda etnik azlıqlara məxsus təşkilatların imkanlarını və potensialını, bu təşkilatların milli və Avropa səviyyəsində, xüsusilə Şərq tərəfdaşlığı regionunda azlıqların hüquqlarını müdafiə etmələrinin təsirini artırmaqdır.

# DÖRDGÜNLÜK MÜHARİBƏNİN YARATDIĞI REZONANS




***Məlum olduğu kimi aprelin əvvəlində Dağlıq Qarabağda Azərbaycan və Ermənistan arasında baş vermiş dördgünlük müharibə nəhayət ki, münaqişəni dünya ictimayyətinin aktiv müzakirə obyektinə çevirdi. İrimiqyaslı hərbi əməliyyatlar zamanı Azərbaycan ordusu Ermənistan tərəfindən işğal olunmuş ərazilərin bir qismini qaytarmağa nail oldu. Lakin başda Rusiya olmaqla bir çox qurumların təzyiqi və təsiri nəticəsində hərbi əməliyyatlar dayandırılsa da, vəziyyət gərgin olaraq qalmaqdadır. Dördgünlük müharibənin Azərbaycan və Ermənistan ictimayyətində yaratdığı fərqli rezonans, həmçinin dünya birliyinin adıgedən münaqişə ilə bağlı sərgilədiyi mövqeləri konkret olaraq müəyyənləşdi. Bundan başqa, hərbi əməliyyatlar bir çox qaranlıq məsələlərə və bundan sonra hadisələrin hansı məcrada inkişaf edəcəyinə qismən də olsa aydınlıq gətirdi. Müharibənin başlanmasının pərdəarxası səbəbləri haqqında müxtəlif fikir və rəylərin söylənməsini nəzərə alaraq problemə başqa səmtdən yanaşmaq yerinə düşərdi.***

İlk öncə qeyd etmək lazımdır ki, dondurulmuş münaqişə ocaqlarında "status-kvo"nun daimi olaraq saxlanması qeyri-mümkündür və o, yenidən alovlandıqda daha təhlükəli olur. Dağlıq Qarabağ probleminin də 22 il dondurulması və münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində həll olunmaması sözügedən problemin çözülməsi üçün təhkim edilmiş ATƏT-in Minsk qrupunun yarıtmaz əməyinin nəticəsidir. Dağlıq Qarabağ probleminin həll olunmasında BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin hüquqi baza rolu oynaması şərt olduğu bir halda, ATƏT-in Minsk qrupunun rəsmi Bakıya Azərbaycanı aşağılayacaq "Madrid prinsipi"ni təklif etməsi deyilənə əyani sübutdur. Qısamüddətli hərbi əməliyyatlar zamanı Azərbaycanın əldə etdiyi uğur çox güman ki, bu qrupun sonrakı fəaliyyətində müəyyən dəyişikliklər etməsinə təsir göstərəcəkdir.

Son hərbi toqquşmalar Azərbaycan ordusunun təkcə hərbi statistik göstəricilərdə yox, həmçinin döyüş aparmaq qabiliyyəti baxımından da Ermənistandan qat-qat üstünlüyünü göstərdi. Ən başlıcası isə Azərbaycan ictimaiyyətində qısa zaman içərisində formalaşan ictimai şüur, öz gücünə və qələbəyə inam, həmrəylik qürurvericidir. Bəlkə də son bir neçə əsrdə Azərbaycan xalqı bu qədər birlik nümayiş etdirməmişdir. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların Vətən uğrunda vuruşmaq üçün hazır olmaları və bunun üçün çoxsaylı müraciətləri qələbənin müjdəsindən xəbər verir. Ermənistanda isə tam əksinə, iqtisadi böhran fonunda hakimiyyətə və orduya inamsızlıq, ictimayyətdə total rüh düşkünlüyü, erməni gənclərinin hərbi xidmətdən boyun qaçıraraq xarici dövlətlərə qaçmaq istəmələri, onların haqsız olmaları və gec-tez məğlubiyyətlə barışacaqları anlamına gəlir.

Azərbaycan ordusunun işğal olunmuş ərazilərdə apardığı hərbi əməliyyatlar zamanı mühüm bir məsələyə də aydınlıq gəldi. Müharibənin yalnız döyüş meydanında yox, həmçinin başqa bir müstəvidə də aparıldığı sübut olundu. Şübhəsiz ki, istənilən sahədə düzgün təbliğat qələbənin yarısı deməkdir. Cənubi Qafqaz regionunda Kremilin oyuncağına çevirilmiş Ermənistan, həm də informasiya sahəsində məkirli addımlar atmaqdadır. Rusiya mediasında Ermənistanın xeyrinə həqiqətdən və reallıqdan uzaq çoxsaylı dezinformasiyaların yayılması Moskvanın əvvəlki repertuarda olmasından xəbər verir. Rusiyanin populyar "HTB", "Lifenews" və digər telekanalları Ermənistanın və ermənilərin hücuma məruz qaldıqları barəsində həqiqətdən uzaq məlumatlar yaymaqla rus ictimayyətində antiazərbaycan stereotipi formalaşdırırlar. Əslində, milliyyətcə erməni olan Aram Qabreliyanin rəhbərlik etdiyi Lifenews kanalından bundan artıq nə eşitmək olardı ki?

***Lakin artıq zaman nə o zamandır, nə də Azərbaycan əvvəlki Azərbaycandır. Artıq dünya birliyi tərəfindən tam dəstəklənən, ərazilərini erməni işğalından azad etmək üçün güclü orduya, iqtisadiyyata və ən başlıcası milli birliyə malik olan Azərbaycan var.***

Sahib MUSTAFA

# ŞƏXSƏ VƏ KƏMİYYƏTƏ GÖRƏ DƏYİŞƏN ACILAR

**Bizim bəxtimizə dünyanın çalxalantılı dövründə yaşamaq düşüb. Kitablarda və filmlərdə şahid olduğumuz səhnələr indi ətrafımızda, həyatımızda oynanılır. Hər gün demək olar ki, yüzlərlə tamaşa səhnələşdirilir. Bəlkə biz də fərqində olmadan, ya da bilərəkdən, şüurlu şəkildə müxtəlif məzmunlu, müxtəlif formalı oyunların oyunçusuna çevrilirik. Məsələnin acı yönü isə ondan ibarətdir ki, bu oyunların heç birində hava bizim zövqümüz üçün çalınmır. Həm də, pul vermədiyimiz üçün, özümüzün də düdük çalmaq istəyimiz, haqqımız olmur.**

Günümüzdə televiziya, internet kimi nəhəng informasiya vasitələri hər gün bir-birindən qara xəbərləri başımızdan aşağı yağdırır ki, bu da bizim sosial vəziyyətimizə, düşüncəmizə və ruh halımıza olduqca mənfi təsir göstərir. Yəqin ki, hamınız razılaşarsınız, az çox radio, televiziya izləyənlər, qəzet-jurnal oxuyanlar isə hələ sözlərimə düzəliş də edə bilər ki, gündə ən azı bir terror hadisəsi eşidirik. Dünyanın müxtəlif bölgələrində adı , yaşı, rəngi müxtəlif, arzuları eyni olan yüzlərlə insan çalğıçısı bəlli olmayan oyunların qurbanına çevrilir. Hətta bu söz həyatımıza o qədər daxil olub ki, adiləşib, sadələşib, özümüzünküləşib. Terror, ölən insanlar, verilən xəbərlər bizə bəzən sadəcə rəqəm təsiri bağışlayır, bəzən də üzür, içimizi əsdirir. Çox zaman canı qiymətləndirə, cana yana bilmirik. Bunun üzərinə ikili standartlar da əlavə olunduqda isə lap hövsələdən çıxırıq. Qanımıza toxunur. Damarımıza basılır. Beləliklə, qanla vicdan arasında qalmış oluruq. Hansısa Avropa ölkəsində baş verən hadisəyə bütün dünyanın ağlaması, müsəlman Şərqində, Türkiyədə hər gün ölənlərin isə rəqəm kimi qiymətləndirilməsi bizi haqlı olaraq çiləden çıxarır. Çünki biz acıların, ədalətsizliklərin şəxsə və kəmiyyətə görə dəyişik qiymətləndirildiyinin şahidi oluruq. Hələ bunun intiqamını alırmış kimi başqalarına da acımamağa başlayırıq. Çünki onlar bizə acımır. Nəhayətində, bir az qəddarlaşmış, bir az da qohumcanlı olmuş oluruq. Bütün bunlar da dünyəvi düşünməmizə mane olur. Ötən günlərdə yenidən qaynamağa başlayan Qarabağ qazanı bütün regionda olduğu kimi, Gürcüstanda da media və cəmiyyətin diqqətində oldu. Əvvəlcədən qeyd edim ki, hadisəni tarixi, siyasi yöndən qiymətləndirmək fikrim yoxdur, sadəcə olaraq bu hadisənin səbəb olduğu bir neçə nüansa diqqət çəkmək niyyətindəyəm. Belə ki, 4 günlük qabaran münaqişə bərabərində Gürcüstan azərbaycanlıları üçün də bir neçə qruplar arasında münaqişələr gətirdi. Bir qrup fəal və dünyəvi düşüncəyə malik insanlar bizim, yəni Gürcüstan vətəndaşı olan azərbaycanlıların bu məsələyə ümumiyyətlə qarışmaması gərəkdiyini, bizim vətəndaşlığımızın Gürcüstana aid olması səbəbi ilə söylədilər. Unutmadan qeyd etməliyəm ki, bu insanlar Dünyanın hansısa cırtdan dövlətindəki qarşıdurmaya, haqsızlığa reaksiya verənlərdir. İkinci qrup insanlarımız isə sosial şəbəkələrdə şəhid oldular, müharibə etdilər, bir çoxu veteran da oldu. Əsaslı düşüncələrlə, faktlarla və məlumatlarla savaşsaydılar, mən də yazdığım bu sözlərdən utanardım, ancaq hələlik buna ehtiyac görünmür. Bəli, bütün bu hərəkətlər sadəcə reklam xarakteri daşıyırdı desəm, şişirtməyə yol vermiş olmayacam. Çünki biz vətənimizi də, millətimizi də, lap bu adının çəkdiklərimə olan sevgimizi də özümüzü gözə dürtmək üçün istifadə edib, sonunda da dünyanın bizə canı yanmasını istəyirik.

**Biz bir-bir olduğumuz üçün bir ola bilməyənlərdənik. Buna görə də, saydan sayılmır, sadəcə fakt kimi, lazım olanda hər zaman isti olan mövzu kimi istifadə edilirik. Özümüz özümüzə birlik olub ağlaya bilmirik ki, qıraqdan baxan da heç olmasa kövrəlsin.**

Afayət AFİQ

# GÜRCÜSTAN PARLAMENTİNİN ÜZVÜ AZƏR SÜLEYMANOV ERMƏNİ DEPUTATI SUSDURDU

Aprelin 13-də Gürcüstan parlamentində növbəti dəfə "erməni soyqırımı"nın tanınması məsələsi səsləndirilib. Məsələ barədə Axalkalakidən olan deputat Samvel Petrosyan təklif irəli sürüb. Bu deputat barədə onu qeyd etmək lazımdır ki, əvvəllər Petrosyan "Vahid Milli Hərəkat"dan deputatı olub, lakin "Gürcü arzusu"nun hakimiyyətə gəlməsindən sonra o, nümayişkaranə surətdə VMH-ın sıralarını tərk edərək, qaliblərin tərəfinə keçib.



Həmkarları qarşısında çıxış edən Petrosyan "erməni soyqırımı"nın növbəti ildönümünün yaxınlaşdığı barədə məlumat verərək, "1915-ci il "genosid" hadisəsi rəsmi şəkildə tanınarsa, Ermənistan və erməni xalqı Tbilisinin bu qərarını minnətdarlıqla qəbul edərdi" - şəklində bəyanat verib.

Lakin Petrosyanın həyacanlı nitqi VMH-dan deputat olan Azər Süleymanov tərəfindən dayandırılıb. O, unutqan erməniyə xatırladıb ki, "burada erməni deputatlar deyil, gürcü deputatlar iclas edirlər, buna görə də Gürcüstanın problemləri haqqında danışmaq lazımdır".

"Parlamentin iclasını "erməni soyqırımı" haqqında nağıllarla zibilləmək yetər. Həqiqi soyqırımı separatçılar tərəfində vuruşan ermənilərin "Baqramyan" batalyonu Abxaziyada törədib. Abxaziyada ermənilər müdafiəsiz gürcü əhalisini öldürüblər.

1915-ci il hadisələrinə gəlincə, Türkiyə tərəfi öz arxivlərini çoxdan açıb, ancaq Ermənistan eyni şeyi etməkdən qəti şəkildə imtina edir.

Ermənilər Xocalıda bir gecədə 613 dinc azərbaycanlını qətlə yetiriblər. Hazırda Azərbaycan ərazisində müharibə gedir, hansı "erməni soyqırımı"ndan söhbət etmək olar? Petrosyan, sən şoumen və təxribatçısan, nəinki deputat", – Azər Süleymanov qəti şəkildə bəyan edib.

Deputatların əksəriyyəti A. Süleymanovla razılaşıb, Petrosyan isə özünün sərsəm ideyalarını unutmalı olub.

# AZƏRBAYCANLI GƏNCLƏR TBİLİSİDƏ AZƏRBAYCANA DƏSTƏK AKSİYASI KEÇİRİBLƏR

Aprelin 4-də Gürcüstanda yaşayan bir qrup azərbaycanlı gənc Tbilisidə ölkə səfirliyi qarşısında Azərbaycanın müdafiəsinə həsr olunmuş aksiya keçirib.

Tədbirin gedişində "Qarabağ bizimdir!", "Şəhidlər ölməz, Vətən bölünməz!" və bu kimi şüarlar səsləndirilib. Sonra gənclər Azərbaycanın Dövlət himnini ifa ediblər. Aksiya boyunca tələbələr Azərbaycan, Türkiyə və Gürcüstan bayraqlarını dalğalandırıblar. Aksiya iştirakçıları işğal altındakı Azərbaycan torpaqlarının azad olunması uğurunda döyüşlərə hər zaman hazır olduqlarını bildiriblər.

Azərbaycanın Gürcüstandakı səfirliyinin humanitar və mədəniyyət məsələləri üzrə attaşesi Samirə Ağayeva və səfirliyin rəsmisi İlyas Məmmədov tədbir iştirakçıları ilə görüşərək, onlara minnətdarlıq edib. Samirə Ağayeva fikrini bu şəkildə ifadə edib: "Bu, bizim xalqımızın və dövlətimizin bir bütöv olduğunu bir daha təsdiq edir".

# İKİNCİ QARABAĞ MÜHARİBƏSİ BAŞLADIMI?

Başlıqda qeyd olunan suala həm hə, həm də yox cavabı vermək olar. Bildiyiniz kimi, 2 apreldən bu yana Azərbaycan-Ermənistan cəbhə xəttində yaranmış gərginlik hələ də davam etməkdədir. Döyüşlər zamanı onlarla şəhid vermiş, bir çox anaların gözü yaşlı qalmış olsa da, Azərbaycan qarşı tərəfə sarsıdıcı zərbələr vuraraq bir daha sübut etdi ki, müharibə yolu ilə istənilən zaman öz torpaqlarını işğaldan azad edə bilər. Bəs müharibə indiyə kimi niyə rəsmən başlamır? Düşünürəm ki, bu elə də asan deyil. Çünki kənar qüvvələrin Dağlıq Qarabağın işğalındakı rolu bəllidir. Yəni Qarabağ sadəcə Azərbaycan və Ermənistan arasında davam edən bir münaqişə deyil artıq. Elə olsaydı, Azərbaycan indiyə qədər torpaqlarını çoxdan azad edərdi. Çünki hər iki ölkənin hərbi gücünə, iqtisadi və maliyyə vəziyyətinə baxdıqda, Azərbaycanın qat-qat üstün olduğunu görərik. Ermənistan isə hər zaman olduğu kimi arxasında dağ kimi duran Rusiyaya çox güvənsə də, deyəsən bu dəfə güvəndikləri dağa qar yağdı.

Nədəndir bilinməz, ancaq Rusiya bu dəfə sanki bir az passiv qaldı, bununla belə, var gücü ilə atəşkəs adı ilə irəliləməkdə olan Azərbaycan ordusunu dayandırmağa çalışdı. Ola da bilər ki, şimal qonşumuz sadəcə pərdə önündən çəkilib, pərdə arxasından idarə etməyə qərar verdi, bilmək olmaz. Ancaq istənilən halda Ermənistan bu dəfə böyük qardaşlarından narazı görünür. Bunu 8 apreldə Rusiyanın baş naziri Dmitri Medvedevin İrəvana səfəri zamanı Ermənistanın göstərdiyi münasibətdən də anlamaq olar. Belə ki, Medvedev və Serj Sarkisyan arasındakı görüşdə sadəcə Ermənistan bayrağının yer alması diqqətlərdən qaçmadı. Bu isə protokollara ziddir. İki ölkənin rəsmiləri görüşdüyü zaman hökmən hər iki ölkənin bayrağı yer almalıdır. Və belə bir şeyi unutmaq qeyri-mümkündür. Yəni bu, məncə, məcazi mənada desək, "a qızım sənə deyirəm, a gəlinim sən eşit" mesajı idi. Görünür ki, Sarkisyan mənəvi "ağabəyi" Putindən inciyib. Amma bu dəfə Azərbaycanı da qardaşları tək qoymadı. Türkiyə və Pakistanın böyük dəstək mesajları, hər fürsətdə Azərbaycanın yanında olduqlarını bildirməsi xalqın zəfərə, qələbəyə olan inancını daha da artırdı. Eləcə də başda ölkəmiz Gürcüstan olmaq üzrə, bir çox ölkələrdə Qarabağa-Azərbaycana dəstək aksiyaları keçirildi, bütün dünya azərbaycanlıları birliyə və həmrəyliyə can atdılar. Bu da onun göstəricisidir ki, artıq Azərbaycan xalqının səbri qalmayıb, öz torpaqlarını nəyin bahasına olursa olsun, qaytarmağa hazırdır. Bunun üçün də lazım olarsa qana qan, cana can verməyi gözə alan milyonlarca azərbaycanlı var.

Düzdür, müharibə istəməyənlər, sülh tərəfdarı olanlar da az deyil. Və medalın bir də o biri tərəfinə baxsaq görərik ki, müharibə o qədər də asan bir şey deyil. Yəni gerçək müharibə kompüter oyununa bənzəmir. İnsanlar gənc yaşda, ömürlərinin bahar çağında həyatını, bəzən qolunu, ayağını, gözünü itirir, ömür boyu o cür yaşamağa məcbur qalır. Əlbəttə, şəxsən mənə görə vətən, torpaq, millət uğrunda şəhid olmaq, vuruşmaq ən böyük şərəflərdən biridir. Amma bu hamı üçün keçərli olmalıdır. Şəhidlərin dəfn mərasimlərinə fikir verdim, heç villalardan şəhid çıxdığını görmədim. Əksəriyyəti sıradan, bəziləri də tamamən yoxsul ailələrin övladları idi. Bu necə olur bəs? Belə ədalət olarmı? Onu da qeyd edim ki, verdiyim örnək ümumidir. İstər Türkiyə olsun, istər Azərbaycan, istərsə də başqa bir ölkə. Hansısa milyonerin, milyarderin oğlu şəhid oldu xəbərini görübsünüzmü heç? Bu hal mənə həmişə fransız yazıçı Jan Pol Sartrın bir fikrini xatırladır. "Savaşı zənginlər başladar, yoxsullar ölər". Əlbəttə, insan insandır, istər zəngin olsun, istər yoxsul. Fərqi yoxdu. Amma insanlar arasında təbəqə olmamalıdır. Ən azından vətən, torpaq, millət uğrunda vuruşarkən. Yoxsa sən öl, mən kef çəkim. Belə olarsa, insanların gözünə nə vətən, torpaq, nə də ki, millət görünər. Son olaraq qeyd edim ki, inşallah bütün şəhid ailələrinə dövlət sahib çıxar. Çıxacağına inanıram və ümid edirəm. Çünki onlar vətən uğrunda canından keçən, gerçək qəhrəmanlardır...

Anar RAFİQOĞLU

# TÜRK DÜŞMƏNLƏRİ YALANÇI VƏTƏNPƏRVƏRLƏRDİR VƏ ONLARIN ARZULARI GÜRCÜSTANI MƏHV ETMƏKDİR

*(əvvəli ötən sayımızda)*

**"Vətənpərvərlər alyansı"nın lideri ermənilərə məqsədlərinə çatmağı və qələbə çalmağı arzulayır, Gürcüstanı isə ermənilər kimi hərəkət etməyə çağırır: "Biz məqsədəyönlü şəkildə və tədricən soyqırımın tanıdılması uğrunda mübarizə aparan erməni xalqı ilə bərabərləşməliyik. Bu soyqırım idi, Gürcüstanın və Gürcüstan hökumətinin bədbəxtliyi ondadır ki, soyqırımı etiraf etməyə cürəti çatmır. Etiraf etmək lazımdır ki, bu həqiqət hər cür, o cümlədən də iqtisadi maraqlardan yüksəkdir".**

Gürcüstanın bu vəziyyətində onun müttəfiqləri və əsas ticarət-iqtisadi tərəfdaşları olan Tükiyə və Azərbaycanla açıq-aşkar konfrontasiyasına yönəlmiş bu cür bəyanatlar tamamilə ağılsısızlıqdır, istənilən gürcü vətənpərvərinin nöqteyi-nəzərindən ziyankarlıqdır. Əgər bu, Gürcüstanı bir dövlət kimi üçüncü tərəfin maraqları xatirinə məhv etmək istəyən yalançı və ya saxta vətənpərvərdirsə (hərçənd ki, o, öz partiyasını "Vətənpərvərlər alyansı" adlandırır), onda hər şey tamamilə məntiqlidir.

Bununla David Tarxan və onun partiyası açıq-aşkar rusiyameylli elektoratı öz tərəfdarları sırasına "qatmağa" cəhd edir. Lakin burada Rusiyaya dost münasibət bəsləyən həqiqi gürcü vətənpərvərlərindən çox böyük fərq var. Gürcü Rusiyanı sevə bilər, rus dövlətinə, xüsusilə rus mədəniyyətinə yaxşı münasibət bəsləyə bilər, Rusiyanın və Gürcüstanın eyni dindən olmasını dərk edə bilər, lakin bununla belə dövlətçilik mövqeyində qalaraq özünə hesabat verər ki, gürcü-rus münasibətlərinin tam normallaşması Abxaziya və Cənubi Osetiya işğaldan azad edilmədən və gürcü qaçqınları ora qaytarılmadan mümkün deyil. Bundan sonra heç kim və heç nə gürcü və rus xalqları arasındakı dostluğa və qardaşlığa mane ola bilməz.

Rusiyanın özünün də marağındadır ki, geosiyasi baxımdan Qafqaz kimi regionda, özünün cənub sərhədində tam tənzim olunmamış iki problemli parazit ərazidənsə, dost ölkənin olması lazımdır. Məhz David Tarxan-Mouravinin sevimli erməniləri hər şey etdilər ki, Abxaziyada və Cənubi Osetiyada separatizmi alovlandırsınlar, məhz onların lobbisi Rusiyanı gürcü torpaqlarının ermənilərin xeyrinə işğalı ilə başa çatan bu separatizmi dəstəkləməklə tamamilə antirusiya siyasəti yürütməyə sövq etdi. Bu gün də Ermənistan gürcü qaçqınlarının Abxaziya və Cənubi Osetiyaya qaytarılması əleyhinə müntəzəm şəkildə səs verərək, Gürcüstanın ərazi bütövlüyünün bərpa olunması əleyhinə çıxış edir. Rusiya ilə problemlərə malik olub, eyni vaxtda Türkiyə ilə, avtomatik olaraq Türkiyə ilə dost və qardaş olan Azərbaycanla aranı vurmaq tam ağılsızlıqdır və belə şeyləri yanız Gürcüstanın qatı düşmənləri düşünə bilər. Beləliklə, işğal olunmuş ərazilərə parçalanmış və "cavax" erməni separatçılarının şəxsində beşinci kalona malik Gürcüstan həmin saat artıq Azərbaycanın 20% ərazisini işğal edən və hətta gürcü torpaqlarına olan iddiasını gizlətməyən, Samsxe-Cavaxet regionunu "erməni cavaxı" adlandıran Ermənistanın təcavüzü ilə təkbətək qalacaq. Ermənistanın Gürcüstana qarşı təcavüzü və onun ərazi iddiaları erməni millətçilərinin Azərbaycana və Türkiyəyə qarşı oxşar iddialarından daha dəhşətlidir. Ermənilər obrazlı desək gürcü xalqının "qəlbini qoparmaq" istəyirlər, onlar əməli olaraq bütün gürcü kilsələrinə iddia edirlər.

Bəli, hələlik onlar rəsmi olaraq 465 gürcü məbədinə qarşı iddia irəli sürüblər. Onlardan 442-sinə "Erməni apostol kilsəsi" və 23-ünə isə Şərqi Avropadakı erməni-katolik kilsə ordinariatlığı iddia edir. Lakin bu, yalnız başlanğıcdır. Ermənilər bütün gürcü kilsələrini ələ keçirmək və Gürcüstanda Pravoslavlığı məhv etmək niyyətindədirlər. Təsadüfi deyil ki, ermənilərin Gürcüstanda əsas hücum obyekti Gürcü Pravoslav kilsəsidir.

Həmçinin cənab David Tarxan-Muraviyə Abxaziyadan olan 300 min gürcü qaçqınını xatırladaq ki, onları məhz onların erməni "xristian qardaşları" qovublar, həm də minlərlə dinc gürcü ermənilər tərəfindən vəhşiliklə öldürülüblər. Yeri gəlmişkən, bir çox qaçqın David Tarxan-Mouraviyə qonşu ermənilərin onlara "Osmanlı imperiyasındakı dəhşətli erməni soyqırımı"ndan bəhs edərkən, həmin vaxt erməni xalqının taleyinə necə acıdığından danışa bilər.

Daha doğrusu Abxaziyadıkı gürcülərin əksəriyyəti alternativ məlumat mənbəyi olmadığından "erməni soyqırımı" ilə razılaşırdı və necə deyərlər onu "tanıyırdı". Nə olsun?! Bu, abxaz gürcülərini ermənilərin vəhşiliyindən və azğınlığından xilas etdimi? "Soyqırımın tanınması" sağ qalmış gürcü qaçqınlarının Abxaziyada ermənilərin ələ keçirdiyi və ya dağıtdığı öz evlərinə qayıtmağa imkan verirmi?! Yox! Bundan başqa ermənilər gürcü xalqına qarşı nifrət dolu böhtanlarını davam etdirirlər və gürcüləri abxaz facisinin "günahkarları" sayırlar.

Erməni və ermənipərəst KİV hər yerdə yazırlar ki, gürcülərin Abxaziyaya qarşı heç bir hüquqları yoxdur və orada yaşaya bilməzlər. Əksinə ermənilər bu torpaqları fəal şəkildə mənimsəyərək, artıq Abxaziyada çoxluğa çevriliblər. Xatırladaq ki, bu, indiki Ermənistan Respublikası ilə həmsərhəd olmayan gürcü ərazilərində baş verir və burada ermənilər ilk mühacirlər şəklində XIX əsrin sonlarında görünmüşlər.

**Əgər ermənilər Ermənistan Respublikasına daha yaxın ərazilərə öz iddialarını bəyan etsələr nə baş verəcək? Üstəgəl əgər Gürcüstan David Tarxan-Mouravi kimi təxribatçıların gücü ilə bu gün özünə ən dost qonşuları ilə küsüşürsə? Gürcü dövləti üçün bu fəlakət olacaq, açıq-aşkar erməni pulu ilə fırladılan yalançı vətənpərvərlərin "Alyans"ı ölkəni məhz buna doğru itələyir.**

KavkazPlus

tərcümə edəni Afayət AFİQ

# ƏN VARLI ÖLKƏLƏRİN ARASINDA GÜRCÜSTAN 113-CÜDÜR

Amerikanın Global Finance Magazine nəşrinin tərtib etdiyi "Dünyanın ən varlı ölkələri" (The Richest Countries in the World) reytinqində Gürcüstan 185 ölkə arasında 113-cü olub.

Tədqiqat Ümumdünya bankının və BVF-nun 2015-ci il üzrə məlumatlarına əsaslanır.

Keçən il Gürcüstanda adambaşına düşən ÜDM 8,2 min dollar təşkil edib.

Dünyanın ən zəngin ölkəsi Qətərdir, o, reytinqdə birincidir. Onu Lüksemburq, Sinqapur, Bruney və Küveyt təqib edir.

Reytinqin sonuncu pilləsini Mərkəzi Afrika Respublikası tutub.

Yaxın qonşularımızdan Rusiya ən varlı ölkələr reytinqində 51-ci olmaqla qonşular arasında birincidir. Türkiyə 62-ci, Azərbaycan 64-cü, Ermənistan isə 116-cı pillədə qərarlaşıb.

# QARDABANİDƏ GÜNƏŞ ELEKTRİK STANSİYASI TİKİLƏ BİLƏR



Amerika şirkəti Qardabanidə günəş elektrik stansiyası tikilməsinin potensialını öyrənməyi planlaşdırır. Bu barədə Gürcüstan iqtisadiyyat nazirinin müavini İrakli Xmaladze bəyan edib.

"Hökumətin iclasında memorandum layihəsi bəyənilib. Layihə çərçivəsində Amerikanın Headwall Power International şirkəti 50 meqavatt gücü olan günəş elektrik stansiyası tikintisinin texniki və iqtisadi məsələlərini öyrənəcək. Bu araşdırmalar başa çatdırıldıqdan sonra hökumətlə danışıqlar aparılacaq və tikinti müqaviləsi bağlanacaq", – İrakli Xmaladze bildirib.

Energetika nazirliyinin yaydığı məlumatda isə bildirilir ki, memoranduma əsasən şirkət 12 ay ərzində araşdırmalar aparacaq, Qardabanidə ictimai müzakirələr keçirəcək, ətraf mühitə təsirə dair qiymətləndirmə hesabatı hazırlayacaq və Gürcüstanın energetika nazirliyinə elektrik stansiyasının tikintisi haqqında lazım gələn təklifləri təqdim edəcək.

# MÖVLÜD QƏNDİLİ HAQQINDA BİR NEÇƏ SÖZ

**Cənabı Allah varlığını və birliyini insanlara bildirmək üçün zaman-zaman peyğəmbərlər göndərmişdir. Peyğəmbərimiz Hz. Məhəmməd (s.ə.s.) peyğəmbərlərin sonuncusudur.**

Bütün peyğəmbərlər onu müjdələdi, bütün səmavi kitablar ondan danışdı. Peyğəmbərimiz inancsızlığın, əxlaqsızlığın, zülmün və cəhalətin insanlıq duyğularını yox etdiyi bir zamanda, bir hidayət məşəli olaraq Miladi 571-ci ildə, hicri təqvimlə isə Rəbiül-əvvəl ayının 12-ci gecəsində Məkkədə dünyaya gəldi. Bu təşrifi ilə bütün kainat hüzura və xoşbəxtliyə qovuşdu. Süleyman Çələbi Həzrətlərinin dediyi kimi:

*Cümle zerrat-ı cihan edup nida,*
*Çağrişu ben dediler ki, merhaba.*
*Merhaba, ey alî sultan, merhaba,*
*Merhaba, ey kani irfan, merhaba,*
*Merhaba, ey sırrı Furkan, merhaba,*
*Merhaba, ey derde derman, merhaba.*

Bəli, bütün kainat mərhaba, xoş gəldin, səfalar gətirdin, ey Allahın Rəsulu, deyirdi. Onun doğuşuyla aləmə rəhmət və bərəkət doldu. Gecələr və gündüzlər rəngarəng çiçəklər açdı. Sözlər və söhbətlər Onunla gözəlləşdi. Onun cəsarətiylə zülm və cəhalət, yerini ədalətə, mərhəmətə və elmə buraxdı.

Cənabı Haqq, Peyğəmbərimizin də ən böyük möcüzəsi olan müqəddəs kitabımız Quranda belə buyurmaqdadır: *"De ki: Əgər Allahı sevirsinizsə mənə uyun ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın."* (Ali İmran , 31)

Deməк ki, Hz. Məhəmməd (s.ə.s)-in yolu ilə gedilmədən hidayət olmaz. Hz. Məhəmməd (s.ə.s)-ə uyğun gəlmədən Allaha sevgi və qulluq olmaz. Çünki Hz. Məhəmməd (s.ə.s)-ə uyğun gəlmək və ona ümmət olmaq bir qul üçün böyük bir bəxtiyarlıq və böyük bir şərəfdir. İnsanoğlu, ictimai həyatında, iş həyatında, elmdə, sənətdə, ədəbdə, ərkanda ona uyğun düşmədikcə xüsrandadır, fəlakətdədir.

Peyğəmbərimizin həyatı araşdırıldığında onun nümunə davranışlarını hər kəs rahatlıqla görəcək. Peyğəmbərimiz kimsənin eyibini araşdırmaz, kimsənin sözünü kəsməz, kimsənin gizli hallarını araşdırmaz, özünü maraqlandırmayan mövzularla məşğul olmazdı.



Peyğəmbərimiz zəngin-kasıb, əfəndi-kölə, kiçik-böyük ayrımı etmədən hər kəsi eyni tutardı. Uşaqları sevər, onlarla maraqlanar, böyükləri sayar, hörmət edərdi. İkram etməyi çox sevərdi. Kimsəni əli boş qaytarmazdı. Bütün işlərini tam bir nizam içində edər, vaxtını boşa keçirməzdi. Dürüstlükdən ayrılmaz, söz verdiyində sözünü tutar, əmanətə əsla xəyanət etməz, zarafatla da olsa yalan danışmazdı. Qısacası hər şeyi ilə nümunə bir insan idi. Necə ki, Cənabı Haqq bu gerçəyi belə ifadə etməkdədir:

"And olsun, Allahın Rəsulunda sizin üçün, Allaha və axirət gününə qovuşmağı ümid edən, Allahı çox zikr edən kəslər üçün gözəl bir nümunə vardır." (Əhzab, 21)

Peyğəmbər Əfəndimizin doğum il dönümü olan Mövlud qəndilini qeyd etmək və "Müqəddəs Doğum Həftəsi" münasibətilə edilən fəaliyyətlərə qatılmaq bunun üçün əhəmiyyətlidir: Müqəddəs Doğum demək, Hz. Peyğəmbəri xatırlamaq, daha əhəmiyyətlisi onu anlamaq və təmsil etdiyi dəyərlər toplusunu tanımaq, Allahdan gətirdiyi ilahi dəvətini, sünnəsini və əxlaqını anlamaq, ona duyulan zəngin sevgini könüllərə yerləşdirməkdir. Bu səbəblərdən ötəridir ki, bütün Müsəlmanlar onun dünyaya gəlişini "Mövlud qəndili" olaraq qeyd etməkdədir.

**Mövlud qəndilinin insanlığın sevimli Peyğəmbərimizi daha yaxşı tanımalarına vəsilə olmasını Uca Allahdan niyaz edər, bütün vətəndaşlarımızın və İslam aləminin Mövlud qəndilini və Müqəddəs aylar deyə bildiyimiz rəcəb, şaban və ramazan aylarını da təbrik edirəm.**

Hacı BƏKİROĞLU

# TORPAĞIN UĞRUNDA ÖLƏN VARSA, VƏTƏNDİR

**"Şəhidlər ölməz, Vətən bölünməz!". Tanrım, şanlı Azərbaycan Ordusunun zəfərləri ilə bizləri və dostlarımızı qürurlandırıb-sevindir, bütün şəhidlərimizin ruhunu şad et! Guman ki, igid və mübariz oğlumuz Mübarizin ruhu indi azca da olsa təskinlik tapıbdır! Axı, bu 4 günlük müharibə bir millət kimi bizi yumruq kimi birləşdirmiş, bidürüst düşmənə acı dərs və qulaqburması verməklə yanaşı, həm də uzun illərdir millətimizin ruhunda kök salmış məğlubiyyət sindromunu dəf edib, yerində möhtəşəm qələbə əzmi yaratmışdır; bükülmüş qəddimizi və boynumuzu dikəltmişdir; harada yaşamasından asılı olmayaraq, soydaşlarımızda böyük ruh yüksəkliyi və görünməmiş yekdillik yaradıb, xalqın qəti qələbəyə inamını birə on yüksəltmişdir!**

Azğın dığalarla bu son toqquşmada işğal altındakı torpaqlarımızı tam azad etməyə nail ola bilməsək də, ən önəmlisi, ÖZGÜVƏNİMİZİ və HƏMRƏYLİYİMİZİ sözdə deyil, gerçək, MİLLİ YEKDİLLİYİMİZİ özümüzə qaytardıq! Hesab edirəm ki, bu, gələcək böyük zəfərlərimizin müjdəçisidir!!! Azərbaycan türkü dünyanın harasında yaşamasından asılı olmayaraq, artiq başını dik tuta bilər, digər millətlərin içində gözükölgəli vəziyyətdə deyil, torpağına sahib çıxmağa qadir, ölüm-dirim savaşına girişməyə hazır olan, qanından qorxmayan kimi gəzə bilər! İnanıram ki, şəhidlərimizin, Xocalımızın ... qisası artıqlaması ilə alınacaq, can Azərbaycanımızı bütöv görəcəyimiz günlər uzaqda deyildir!!!

"Torpağin uğrunda ölən varsa, vətəndir". Bəli, torpaq uğrunda canından keçənlərimiz və keçməyə hazır olanlarımız bu qısa müddətli müharibədə də göstərdi ki, az deyillər! Bu hal isə erməni dığalarının və himayədarlarının bizlərə qıcanan dişini əməllicə sındırıb, qarnına tökdü! Ərazilərimiz hesabına qondarılmış Ermənistanın eks-prezidenti L.Ter-Petrosyan Azərbaycanın yaxın zamanlarda çox güclənəcəyini və öz şərtlərini erməni tərəfə yalvarda-yalvarda, zorla qəbul etdirəcəyini hələ 1998-ci ildə proqnoz etmişdi. Zənnimcə, o vaxta elə bir şey də qalmayıb, sadəcə olaraq, indi Azərbaycan diplomatiyası lazımi səviyyədə, o dərəcədə güclü olmalı və ayıqlığı əldən verməməlidir ki, Fransa, Rusiya, İran və s. çoxüzlü dövlətlər yenə başımızın altına yastıq qoya bilməsinlər... (bir sözüm də var: Vətən müharibəsində yalnız kasıbkusubun mərd oğulları şəhid olmamalıdır axı, nə zamana qədər bu Vətənin cəfasını kasıblar, səfasını isə varlılar, məmurlar və onların biqeyrət oğulları sürməlidir?!) ... 1998-ci ildə prezidentlikdən devrilərkən, geydirmə dövlətin nisbətən ağıllı prezidenti Ter-Petrosyan gələcəkdə Azərbaycanın çox güclənəcəyini və indiki şərtləri qəbul etmək üçün ermənilərin yalvaracağını bildirmişdi. "Vaxt gələcək, ermənilər azərbaycanlılara yalvaracaqlar" – deyə o, istefaya məcburən göndərilərkən bildirmişdi. Görünür, eks-prezidentin dediyi o möhtəşəm məqam gəlib ki, Xocalı cəlladı Sərkisyan indi məcbur olub eks-prezidentin ayağına gedir, ondan çıxış yolu umur...

**Bu gün bizləri birləşdirən qüvvənin mövcud olması, heç də bizləri biri-birimizdən ayırmağa cəhd edən iyrənc qüvvələrin də olmaması anlamına gəlməməlidir, ayıq olmalıyıq. Məsələn, "Olaylar" saytının baş redaktoru Yunus Oğuz kimiləri biz gürcüstanlıları Qarabağ kimi MİLLİ SAVAŞA biganə qalmaqda suçlamaqla nə demək istəyirlər?! Düşünürəm ki, bu cür cızma-qaralar kimlərinsə onlara verdiyi tapşırığa görə bizləri əsas hədəfimizdən – yekdillik, həmrəylik, optimistlik, qələbə əzmi kimi hisslərdən ayırıb, birbirimizə qarşı köklənməyimizə, pessimistcəsinə, yenicə dirçəlmiş milli ruhu məyusluğa kökləmək məqsədinə xidmət etməkdədir. Nə isə, Sevgili Can və Qandaşlarım, bir millət kimi harada olmağımızdan asılı olmayaraq, yeganə və doğru olan mövqeni birlikdə sərgiləməliyik: ya ermənilər Qarabağdan və ətraf ərazilərdən çıxıb gedir, ya da bizim əlimizlə rədd edilirlər! Bu qədər bəsit!!!**

Cambul MƏMMƏDLİ

# BAŞ NAZİR BİRBAŞA XARİCİ SƏRMAYƏNİN 80%-LİK ARTIMINDAN BƏHS EDİB

Gürcüstanın baş naziri Georgi Kvirikaşvili Dubayda hər il keçirilən investisiya forumu (AIM 2016) çərçivəsində Global Leaders Debate sessiyasında nitq söyləyib.

Baş nazirin mətbuat xidmətindən bildirilib ki, Georgi Kvirikaşvili Gürcüstanın strateji coğrafi vəziyyəti, ölkədəki cəlbedici investisiya mühiti, ölkənin nəqliyyat potensialı və biznesin asanlıqla həyata keçirilməsi sahəsində mövcud olan vəziyyət barədə danışıb.

Baş nazir forum üzvlərini Gürcüstanın investisiya imkanları barədə məlumatlandırıb və ölkədə azad, açıq və şəffaf biznes mühitinin mövcud olmasını qeyd edib.

Onun sözlərinə görə, son illərin ən böyük uğuru Aİ ilə assosiasiya haqqında razılaşmanın əldə olunmasıdır. Bu isə Gürcüstanın investisiya cəlbediciliyini əsaslı şəkildə artırıb.

"Son illər ərzində Gürcüstana birbaşa xarici sərmayə qoyuluşu artıb. 2014-cü ildə 80%-lik artım qeydə alınıb və sərmayənin həcmi 1,75 milyard dollar təşkil edib", – baş nazir qeyd edib.

Georgi Kvirikiaşvilinin sözlərinə görə, Gürcüstan hökuməti ölkənin iqtisadi inkişafı, təsirli idarəetmə, təhsil sisteminin yenidən qurulması, infrastruktur və regional inkişaf məqsədi daşıyan yeni islahatlara başlayacaq.

# ƏHALİNİN 77%-İ GÜRCÜSTANIN AVROPA BİRLİYİNƏ, 69%-İ İSƏ NATO-YA DAXİL OLMASINA RAZIDIR



Gürcüstan vətəndaşlarının çoxu Gürcüstanın Avropa Birliyinə daxil olmasına tərəfdardır. Milli demokratiya institutunun (NİD) Gürcüstanda keçirdiyi ictimai rəy sorğusunun nəticələrinə görə, ölkədə bu cür düşünənlər 77% təşkil edir. Bu suala rəyi soruşulanların cəmi 14%-i mənfi cavab verib.

Qeyd etmək lazımdır ki, Avropa Birliyi tərəfdarlarının sayı keçən ilin avqustunda keçirilmiş rəy sorğusunun nəticələri ilə müqayisədə artıb. Onda Avropaya inteqrasiyanı rəyi soruşulanların 60%-i dəstəkləyirdi.

NATO-ya münasibətə gəlincə, rəyi soruşulanların 69%-i onu dəstəkləyir, 19%-i isə əleyhinədir.

Rəy sorğusu fevralın 23-dən martın 14-dək həyata keçirilib. Bütün Gürcüstan üzrə birbaşa müsahibə metodu ilə 3900 adamın rəyi soruşulub.

# PARLAMENT SEÇKİLƏRİNİN VAXTI DƏYİŞMƏYƏCƏK

Gürcüstanda parlament seçkilərinin vaxtı, yəni 8 oktyabr tarixi dəyişməyəcək. Çünki bu ciddi məsləhətləşmələr nəticəsində müəyyən olunub. Baş nazir Georgi Kvirikaşvili bu barədə aprelin 8-də hökumətin iclasında bəyan edib.

Seçkilərin oktyabrın 8-də keçirilməsi barədə sərəncamı prezident Georgi Marqvelaşvili imzalanmaq üçün aprelin 5-də baş nazirə göndərib. Mübahisəli qalan onun avqustun 8-də qüvvəyə minməsidir. Məhz bu vaxtdan seçkiqabağı kampaniya başlamalıdır. Ölkənin aparıcı QHT-ləri bunu qanun pozuntusu kimi dəyərləndiriblər.



"Seçkilərin vaxtı dəyişməyəcək, seçkilər oktyabrın 8-də keçiriləcək. Bu, siyasi qərardır. Biz prezidentlə məsləhətləşib, bu məsələni müzakirə etmişik… Seçkinin vaxtının əvvəlcədən bilinməsində düşünürəm ki, pis heç nə yoxdur", – Kvirikaşvili deyib.

Seçkiqabağı kampaniyanın başlanması tarixi sonra elan olunacaq.

Prezident qərarın avqustun 8-də qüvvəyə minməsini seçkilərin vaxtını elan edərkən bildirib. Bir qədər sonra o, aydınlaşdırmışdı ki, bu, büdcə xərclərini azaltmaq, partiyalara isə əvvəlcədən hazırlaşmaq imkanı verəcək.

"Bu gün maliyyə və texniki məsələlər müzakirə edilir, müzakirələrdə MSK da iştirak edir və biz məsləhətləşmələr nəticəsində qərar qəbul edəcəyik", – baş nazir qeyd edib.

O, vurğulayıb ki, ölkə aylarla seçkiqabağı kampaniya rejimində yaşaya bilməz.

# NƏRİMAN NƏRİMANOVDAN SONRAKI NƏRİMAN – ƏBDÜLRƏHMANLI



**1985-ci ilin həyat dolu may günləri idi. Vur-tut 20 yaşım vardı. Əsgərlikdən təzəcə gəlmişdim. O zamanlar Tiflisdə görkəmli tarzən, Gürcüstanın əməkdar mədəniyyət işçisi rəhmətlik Ənvər Xudaverdiyevin rəhbərlik etdiyi məşhur "Sevinc" ansamblı onun vəfatı nədənilə təzəcə dağılmışdı və adaşım Rafiq Qəmbərov yeni bir ansambl qurmaq və bütün tarixi kökləri ilə bizlərlə sıx bağlı olan bu qədim şəhərdə musiqi mədəniyyətimizi öləziməyə qoymamaq üçün böyük çabalar göstərirdi. Bu enerji dolu, sözün yaxşı mənasında qarsamba adam məni də axtarıb tapmışdı. Qısacası, az sonra adaşımın bədii rəhbər, mənim isə quruluşçu-rejissor və aparıcısı olduğum 35 nəfərlik beynəlmiləl "Aynur" ansamblı araya-ərsəyə gəlmişdi. Ansaml az müddət ərzində böyük uğurlara imza atmış, Tiflisin ən böyük konsert salonlarında anşlaqla keçən proqramlar düzənləmiş, xeyli şöhrətlənmişdi.**

İlk konsertimizə adıbəlli ziyalıları, yazarları, jurnalistləri dəvət etmək mənim öhdəmdə idi və bunun üçün birinci cərgədən ayrıca 20 dəvətnamə mənə verilmişdi. Mən, əlbəttə, ilk olaraq, o vaxtlar Gürcüstanda azərbaycanlıların ən önəmli ədəbi-mədəni mərkəzi rolunu üstlənmiş "Sovet Gürcüstanı" (indiki "Gürcüstan") qəzetinin redaksiyasına, oradan isə dostum və həmyerlim Afiq Hacıyevin yanına – onun o vaxtlar təhsil aldığı A.S.Puşkin adına Tbilisi Dövlət Pedaqoji İnstitutuna getmişdim. Həmin gün Afiq məni sonralar özümün də məzunu olduğum institutun müəllimləri, Tiflis ədəbi mühitinin görkəmli simaları: Alxan Binnətoğlu və Valeh Hacılarla tanış etmişdi, Afiqin kurs yoldaşı Könül isə məndən əlavə bir dəvətnamə istəmişdi – mənim o vaxt hələ tanımadığım yazıçı-jurnalist NƏRİMAN ƏBDÜLRƏHMANLI üçün. Əlbəttə, mən həmin günə qədər ədəbi cameə üçün elə də yabançı birisi deyildim, rayon qəzetində, mərkəzi mətbuatda azdan-çoxdan çap olunmuşdum, lakin dilimizin sərhədlərindən uzaqlarda keçən 2 illik əsgərlik həyatı az zaman deyildi və mən itirdiklərimi sürətlə bərpa etməli idim...

Bəzi başqa yazılarımda qeyd etdiklərimi bir daha təkrar edirəm. O dövrdə Tiflis-Borçalı ədəbi cameəsinin çox zəngin tərkibi vardı. Valeh Hacılar, Alxan Binnətoğlu, Rəşid Hacallı, Arif Mustafazadə, Yunus Novruz, Səməd Qaraçöp, Eyvaz Əlləzoğlu, Nəriman Əbdülrəhmanlı, Allahverdi Təhləli, Tapdıq Yolçu, Afiq Muxtaroğlu, Əzim İsmayıllı, Lətif Mustafaoğlu, Etimad Başkeçid, Əlixan Düşkün, Şurəddin Məmmədli, İbrahimxəlil, Məmməd Həsənli, Dəyanət Osmanlı, Mirzə Məmmədoğlu, Emin Elsevər, Əli Səngərli, Əli Vüqarlı, İslam Əliyev, Zümrüd Orxan, Xaqani Qayıblı, Zülfüqar Şarbanlı, Nurafiz, Kamandar Mamocoğlu, Səadət Buta, Nəsib Yusifoğlu, Süleyman Əfəndi, Mədəd Coşqun, Əsəd Təhləli, Xəlil Şahvələd, Nəriman Əliyev, İmir Məmmədli, Əbdüləli İbrahimsoy, Müzəyyət Yusifli, Rəşid Faxralı, İsaxan İlyaz, Murtuz Məmmədli, Fərhad Xubanlı, Həvillək Bayramlı, Aslan Görarxlı, Zaməddin Ağbabalı, Razim Məmmədli, Müşfiq Çobanlı və anidən adlarını xatırlamadığım neçələri bu cameədə dilimizi yaşadıb inkişaf etdirməklə bərabər, bu və ya başqa şəkildə milli məfkurəmizin daşıyıcıları idilər.

...Sonralar bu sadaladıqlarımdan bəziləri həyatdan, bəziləri Gürcüstanımızdan, bəziləri isə ağır yaşam şərtlərindən dolayı ədəbiyyatdan köçdülər. Tiflisə, Borçalıya, burada yaşayan dostlara ən sadiq bir neçə insandan biri olan NƏRİMAN ƏBDÜLRƏHMANLI buralarla heç zaman üzülüşmədi, 1985-ci ilin mayından başlayan dostluğumuzsa bütün mənfəət kurallarından ucada dayandı və necə vardısa, eləcə də davam etməkdə...

Nəriman, S. Qaraçöp, L. Mustafaoğlu və rəhmətlik E. Əlləzoğlu vaxtaşırı yataqxanaya bizləri ziyarətə gələrdilər. Əlbəttə, azərbaycanlı tələbələrin də məskunlaşdığı Vakedəki tələbə şəhərciyinə söz, sənət adamlarından gələnlər az deyildi, amma şəxsən mənim üçün hər həftənin dördüncü günü əsl bayram olurdu. Nərimangilin də əməkdaşı olduğu "Sovet Gürcüstanı" qəzetində həmin gün həftəlik yığıncaq olurdu və axşam mənim yataqxanadakı 104 nömrəli otağımda əsl ədəbiyyat bayramı düzənlənirdi. Həftə ərzində qələmə aldığım şeirləri Nərimana oxuyurdum və simasındakı dəyişikliklərdən anındaca şeirimin hansı qiymət aldığını anlaya bilirdim. Nəriman o qədər pozitiv idi ki, hətta onun tək bu pozitivliyi xatirinə olsa belə, yazmamaq mümkün deyildi. Unutmamış, altını cızaraq, qeyd etmək istəyirəm: Nəriman hələ o vaxtlardan sağlığında əsl qiymətini almamış, faciəli həyat yaşamış sənətkarlara xüsusi önəm verir, milliyətindən asılı olmayaraq, onlar haqqında portret yazılar yazıb çap etdirirdi. 37-ci illərin repressiya qurbanı olan görkəmli gürcü şairi Tisian Tabidze haqqında təxminən 30 il öncə qələmə aldığı "Ağ qızılgülün solmayan ətri" portret yazısının zərif ruhunu indiyədək tamarzı kimi xatırlayıram. O, sonralar da bu xeyirxah işini davam etdirmiş, Aşıq Teymur Qurbanov, Qaraçöplü Aşıq Musa, İsa İsmayılzadə, Natiq Səfərov, Vidadi Məmmədov, Aydın Məmmədov kimi unudulmaz sənətkarlar və ziyalılar barədə ayrıca kitablar hazırlayıb nəşr etdirmişdir.

Öz həyatını dörd mərhələdə: publisistika, kino, nəsr və tərcümədə tanımlayan Nərimanın fəaliyyət sahəsinə mən çəkinmədən naşirliyini də əlavə edərdim, ən azı ona görə ki, öz şəxsi yaradıcılığından əlavə, onlarla kitab nəşrə hazırlamış, tərtib və redaktorluq etmişdir. Üstəlik, "Qaraçöp" ədəbi-etnoqrafik toplusunu hazırlayıb nəşr etdirməklə, bu sahədə bir ilkə də imza atmışdır. Publisistikada yüzlərlə məqaləyə müəlliflik edən Nəriman, əllidən çox bədii və ya sənədli filmin əksəriyyətinin ssenari müəllifi, bir qisminin isə redaktorudur.

Nəriman Əbdülrəhmanlının tərcüməsində indiyədək ümumi həcmi təxminən 16 000 (!) səhifə olan 45 kitab çapdan çıxıb, tərcümə etdiyi 25 kitab isə öz çapını gözləyir. Bütün bunlarla bərabər, Nəriman, əlbəttə, ilk öncə yazıçıdır, çağdaş Azərbaycan nəsrinin ən görkəmli nümayəndələrindən biridir – kimlərsə bu faktı qısqansa da, kimlərsə dansa da, kimlərsə istəməsə də, bu belədir və bunu mənim pafoslu sayıla biləcək bu bəsit cümləm deyil, Nərimanın təxminən 30 ilini verdiyi hekayələri, povestləri, romanları təsdiq edir.

Nəriman ədəbiyyata bəziləri kimi qəfildən hoppanıb düşməyib, qalıcı əsərlərlə qalıcı şöhrəti haqq etmək üçün hər mərhələni gözü ilə odlar götürərərək, ağır zəhmət hesabına adlayıb. 80-ci illərin əvvəllərindən başlayaraq, öncə koloritli publisistikası və hekayələri, 90-cı illərdə povestləri, 2000-ci illərdə – dünyagörüşünün,müdrikliyinin, təcrübəsinin bəlli yetkinliyində romanları ilə ədəbiyyatımıza rəng qatmışdır. Mübaliğəsiz deyə bilərəm ki, Nərimanın kitab şəklində çap olunmuş əsərlərindən, etdiyi tərcümələrdən və nəşrə hazırladıqları kitablardan babat bir kitabxana oluşturmaq mümkündür.

Fikrimcə, şairlərinin bolluğu ilə seçilən Tiflis-Borçalı ədəbi arealı Nəriman Nərimanov və Abdulla Şaiq kimi ədiblərdən sonra, ötən əsrin 2-ci yarısında Tahir Hüseynov və bir neçə istisnalar olmaqla, əksər vaxtlar nasir qıtlığı yaşamışdır. Aradan təxminən bir əsr keçdikdən sonra, mərhum Eyvaz Əlləzoğlunun və Nəriman Əbdülrəhmanlının ortaya qoyduqları bir çox sanballı nəsr əsərləri sayəsində bu yoxsunluq aradan qaldırılmışdır.

Nərimanın, demək olar, bütün əsərlərini oxumuşam. Uzun illər qəzet və jurnal səhifələrində öz hekayələri ilə çıxış etsə də, povest və hekayələrdən ibarət "Yelçəkən" adlı ilk kitabını 2003-cü ildə, 45 yaşında nəşr etdirmişdir. Sonrası isə təbii və yüksələn xətlə davam etmişdir: bir-birinin ardınca "Yalqız", "Könül elçisi", "Yolsuz", "Yolçu", "Qurban" romanlarını ayrıca kitablar şəklində, ötən ildə isə hekayələr, povest və romandan ibarət "Dönəlgə" kitabını çap etdirməklə, Nəriman özünün ədəbiyyatda nəinki təsadüfi biri olmadığını, hətta çağdaş ədəbiyyatımızın kifayət qədər məhsuldar və ambisiyalı bir nümayəndəsi olduğunu hay-küy salmadan, heç bir geydirmə piar və reklama söykənmədən, sadəcə öz yazdığı əsərlərlə sübuta yetirmişdir.

...80-ci illərin ikinci yarısı Tiflis-Borçalı ədəbi cameəsinin elə bir qaynar və eşq dolu dövrü idi ki, indi də o illərin nostalgiyası məni Tiflisin mən bilən küçələrində qəfildəncə ildırım kimi vura bilir, saatlarla sanki yaşadığım zamandan ayrılır, nəyin bahasına olursa-olsun, o illərin izaholunmaz pozitiv enerjisini ruhumda oyandırmağa çalışıram.

...Yataqxanadakı 104 nömrəli otağımda həm sazım, həm də gitaram vardı. Hər həftənin dördüncü günü Nərimanı gözləyirdim. Oxumam üçün yeni kitablar, qəzet-jurnallar gətirəcəkdi. Sonra yeni şeirlərimi dinləyəcəkdi. Sonra süfrə arxasında sıra ilə gah saz, gah da gitara qəmli-qəmli ötəcəkdi. İlyas, Rüstəm "Ruhani"ni, "Mansırı"nı inildədəcəkdi. Sonra Nəriman gitaranı işarə edərək, bu gün də ağrılı bir istəklə dinlədiyi həmin mahnını oxumamı istəyəcəkdi. Mən səsimi gitaranın simlərinə hopdurub axıb gedəcəkdim:

Dağda duman yeri var, duman yeri var,
Qaşda kaman yeri var, kaman yeri var.
İtirmişəm yarımı, yarımı,
Harda güman yeri var, güman yeri var...

Gözlərimdə yaşı gizlətməyə yer axtaracaqdım, Nəriman da eləcə. Kişilər ağlamaz deyirlər ya, bu fikir daşürəkli adamların uydurduğu blef düşüncədir... O dövrdə yazdığım uğurlu şeirlərin əksəriyyətində Nərimanın sakin pozitivinin rolu vardı. O, heç zaman "yaz" deməzdi, sadəcə içindən qovrularaq vərəqə köçürülmüş bir şeirin üçün elə ürəkdolusu sevinərdi ki, onunla növbəti görüşə şeirsiz getmək edama getmək bir şey olardı...

80-ci illərin sonlarında bizim durna qatarımız dağıldı. Tiflis-Borçalı ədəbi cameəsi çilik-çilik oldu. Gedənlər də qərib oldular, qalanlar da. Gedənlər də uduzdular, qalanlar da. İçimdə dəfələrlə savaş baş verdi. Nə gedənlərə qoşula bildim, nə qalanlara. Stres canıma sitəm elədi, xəstələndim, kimsəyə xəbər vermədən ağır əməliyyat keçirdim. Və... heç gözləmirdim, amma qayıtdım, qayıdan kimi yaddaşım yaşardı, ən doğmalarım içində Nərimanı xatırladım. 90-cı illər idi. Gözlərimdən yaş süzüldü. Nərimanla bağlı bir dəfə də ağlamışdım: Tiflisdə. Meydanda, Kürün sahilində. 80-ci illərin sonunda. O, Bakıya köçəndə...



İndi yazanlara asandır, amma "qondarma yazarlara" daha asandır. Senzura yox, qadağa yox, eləştirib təftiş edən yox, çap olunmaq üçün min bir zülüm çəkməyə də gərək yox. Ağlına gələni cızmaqara elə, get dananın birini sat, kitabını çap etdir və yaxud geydirmə saytlar, sosial şəbəkələr sağ olmasın, paylaş paylaşa bildiyin qədər. Ən acınacaqlı məqam isə budur ki, ədəbi meyarlar Azərbaycan ədəbiyyatında olduğu qədər heç bir yerdə bu qədər zorlanmaya məruz qalmayıb. İndi nəinki hər rayonun, hətta hər kəndin, hər məhəllənin öz "yazarları" peyda olub və bu "ədəbi vampirlər" halal söz adamlarının qanını əmməkdə. Gürcülərdə isə sənətə dəxli olmayan birisi özünü sənətkar kimi cəmiyyətə sırıyammaz, çünki ona anındaca gedib çaxırını içməyi məsləhət bilirlər. Tiflisdə kitab çapı ilə bağlı zaman-zaman bəzi nəşriyyatlarda oluram. Müəlliflər, redaktorlar kitablardakı hər kəlmə, hətta durğu işarəsi üçün yarpaq kimi əsirlər. Özümün də bu cür xasiyyətim olduğu üçün sözə bu cür münasibət mənə gerçəkdən ləzzət edir. Amma biz oxumaq, mütaliə etmək kultunu getdikcə yadırğayırıq. Çünki tanınmış ədəbi simalarımız bəzən ələlərinin "kitablarına" ön söz yazırlar ki, adamın ayağı yerdən üzülür və o yerdən üzülən ayağın yerinə həmin "ədəbi vampirlərin" qədəmləri basılır. Bax elə beləcə Nərimanın, Nəriman kimilərin halal haqqı torpaqlarımız kimi işğal olunur...

**Bu yazı sadəcə bir dost yazısıdır. Çağdaş ədəbi tənqidimizin əksər nümayəndələri ilə iliq münasibətlərim var. Mən, əlbəttə, Nərimanın romanlarındakı ədəbi salğarı da, tarixi çəkini də anlamamamış deyiləm. Amma mən hər şeydən əvvəl bir oxucuyam. Nərimanın əsərləri kitab halında gerçək ədəbiyyat adamlarının hamısında vardır deyə düşünürəm. 20 yaşlı ədəbi gələcəyi bəlli olmayan "nasirləri" tərifləyib şikəst etməkdənsə, Nərimanın və digər gerçək sənətkarların əsərlərini saf-çürük etməyin, kəm-kəsirlərini söyləməyin, sözün həqiqi mənasında təqdir və tənqid etməyin zamanı çoxdan çatmışdır deyə düşünürəm. Çünki illər ötəndən sonra, onsuz da bu işləri görən bir dəliqanlı tapılacaq və öz sələflərinə zamanında bu işi görmədikləri üçün heç də rəhmət oxumayacaq...**

Rafiq HÜMMƏT

# DÜNYANIN DADİ-BÜSAT ÇÖMÇƏSİ

## *(Aşıq Hüseyn Saraclı üçün ucqar havası)*

**Aşıq Murad yaxın qohumumdur; məni hər dəfə adımla yox, "dayıoğlu" deyə çağırır. O, dostları arasında "Kövrək Murad" kimi də tanınır. Çünki gəncliyində "Kövrək" təxəllüsü ilə qoşmalar, gəraylılar yazıb. Aşıq Hüseyn Saraclının sonuncu şəyirdi də Kövrək Muraddır. Adaşı Dəllək Muradın bu məhzun və məsum möhürbəndini də ilk dəfə ondan eşitmişəm:**

*Dəllək Murad, bu yollarda sürünnəm,*
*İndi gedişimdi, nə vaxt görünnəm?*
*Altım torpaq, üstüm də daş hörülləm,*
*İsti nədi, soyuq nədi, qar nədi?..*

...Onda Hüseyn Saraclının ifasında onun özünün bağrıbadaş bəstələdiyi və dili cana od salan dərdəsər "Dübeyti" üstündə oxuduğu "Minayə" adlı mahnısı çox dəbdə idi və mən çox istəyirdim ki, Hüseyn Saraclı Dəllək Muraddan da oxusun, çünki Dəllək Muradın sözləri çox incə mətləblərdən, çox qubarlı və qarlı yollardan xəbər verirdi.

Hüseyn Saraclını son dəfə Aşıq Muradın oğlu İzaninin kiçik toyunda gördüm və açığı, istədim Valeh müəllimə – unudulmaz Valeh Hacılara – söyləyəm, o da fikrimi ustada çatdıra. Valeh müəllim xətrimi çox istəyirdi, cürət edib söyləsəydim qəlbimi qırmazdı. Amma demədim; onda ustadların zati-ali zəhmi də ağır olurdu. Bir o yadımda qalıb ki, salğarı da, hüznü-həsrəti də bu gecə nədənsə sanki artıq olan ustad aşıq bizim – böyüklü-kiçikli Borçalı yazarlarının – əyləşdiyimiz süfrəyə ağsaqqallıq eləyən Valeh müəllimə bəsirətlə baxıb dedi:

– Həqiqi sahibimiz uca Allahdı və ancaq Onun Yazısına pozu yoxdu; çünki hiss edirəm bu mənim sizinlə son görüşümdür, indi çalışın sizə lazım olanı məndən çıxarın...

..."Minayə"nin sözləri ilk baxışda həddən ziyadə adi, amma həm də həddən ziyadə səmimi sözlər idi:

*Evləri var Qoçulu kəndi,*
*Sənə deyim necə bəndi?*
*Xoca Məhəmmədin zəndi*
*İtməz heç vaxt, ay Minayə!..*

Və ustad bəstəsinə elə zərif, elə qədim-qayım çalarlar calayırdı ki, adamın əlini-qolunu könüllü bağlatmaqdan, könüllü əsir olmaqdan başqa çarəsi qalmırdı.

...İndi – aradan bu qədər izli-soraqlı illər ötəndən sonra arazbarı-arazbarı anlayıram ki, əzizləmə mənasında şirinliklə həm də "dadi-büsat çömçəsi" adlandırılan saz nələrə qadir imiş! Görünür, bir vaxtlar Qaraçöp tərəflərdə günə baxmaqdan az qala günəbaxan olan Səməd Qaraçöp "Saraşdı Söyün"ə həsr etdiyi şamdangülü şeirdə əbəs yerə dərdəcər deməyibmiş:

*Göynə, telli sazım, məni də yandır,*
*Odumu almışam odunnan axı!*
*Tanrıdan gəlirsən, göydən gəlirsən;*
*Qədimdən gəlirsən – qədimdən axı!..*

..."dadi-büsat çömçəsi" demiş, dərdi-hal dastanlarımızın birində belə deyilir:

"...sazı alıb dindirdi: saz – saz idi ha!

Evə qayıdanda gördü anası ağlayır. Ana da baxdı gördü oğlu onun gor-kəfənlik üçün yığdığı pula çömçə alıb.

Dedi:

– Bala, bunu niyə almısan, bu nə çömçəsidir belə?

Dedi:

– Bu, dadi-büsat çömçəsidir"...

Burası da var ki, baxır bu dadi-büsat çömçəsi – bu saz kimin əlindədir? Misilləmə misal üçün, Tufarqanlı Abbasınmı, yoxsa Mirzə Tüpdağıdanınmı, Dədə Ələsgərinmi, yoxsa Süsən-Sünbüllü gədə Əsgərinmi, Hüseyn Saraclınınmı, yoxsa sazla artistlik eləyən "modern" Mirzə Mikrobunmu?

... Müxtəsəri, gor-kəfənlik üçün yığılan pula – o pul ki, illərlə, özü də sanki daşdan qamqalaq qopardıla-qopardıla yığılır – saz alan dastan qəhrəmanı nə elədiyini, necə elədiyini bilməmiş deyildi! Axı hər yoldan ötənə buta ha verilmir; hər yolunu azan yuxuda nurani qocalar tərəfindən nişanlanmır ki! O, hələ hardan biləydi ki, sazın (sözün də) həm də magik-sirli-əsrarlı sağaltmaq, müalicə eləmək, şəfa vermək gücü də var! Hələ qələm misallı qəddənən barmaqlar arasından uzaq-uzaq yollar görünürdü... hələ üç aylıq yolu üç günə gəlib çıxmaq qabaqda idi...

Hüseyn Saraclı danışırdı...

Qürbətçi oğlunu gözləməkdən gözlərinin kökü saralıb kor olmuş ananın gözlərinə sazın-sözün nurundan – bir ovuc torpaq vasitəsilə – necə işıq gəlir...

"Qərib dedi: – O divardakı sazı verin, saznan deyim:
...Canım ana, gözüm ana,
Ana, mən Qəribəm, Qərib..."

Sınıq körpünün bəri üzündə, Əyriqarın ətəklərinə yaxın Hüseyn Saraclının sazına-sözünə o qədər valeh olanlar, o qədər buta verilmək həsrəti ilə yaşayanlar var idi! Axı sazın – bu dadi-büsat çömçəsinin köynəkdən çıxmağı ilə təkcə Abbasla Gülgəz, Valehlə Zərnigar, Qurbani ilə Pəri xanım, Tahirlə Zöhrə muraza yetmirdi, həm də el muraza yetirdi, el yasdan çıxırdı. Bilmirəm "Aşıq Qərib"in vətəni olan Azərbaycan və Türkiyədən dolayı, yaxından səsləşdiyi Avropa və Asiya roman-dastanları da daxil olmaqla, geniş yayıldığı digər ölkələrdə bu dastanı



Aşıq Hüseyn Saraclı boyda tərənnüm edib əbədiləşdirən ikinci bir sənətkar olubmu və olacaqmı? Çətin...

Unudulmaz ustadın bu böyük qabiliyyətini xalq şairi Bəxtiyar Vahabzadə qulağa xoş gəlmək üçün deyil, həqiqəti demək üçün tarixə belə salıb: "H.Saraclının söylədiyi dastanları dinləmişəm. .. ustad elə bədii və obrazlı danışır ki, vəziyyət teatr tamaşası kimi gözümüzün qarşısında canlanır. Elə bil gözəl bir operaya baxırsan. Bu operanın rejissoru da özüdür, dirijoru, ifaçısı da, müşayiət edəni də. Eyni zamanda o, həm libretto müəllifidir, həm də bəstəkar".

...Dünən Sənəkuçan tərəflər elə çənə-dumana bürünüb, elə "tüstüləyirdi" ki, mübaliğə olmasın, sanki Hüseyn Saraclının qəlyanıdı. Dedim sazımıza-sözümüzə arada-sırada irad tutub, küfr yağdıranlar bənzətməmi bəlkə görməsələr yaxşıdı; çünki özü də bir "şeir kanı, söz ümmanı" olan sənətkar bəlkə də məhz münafiqlər üçün demişdi bunları:

*Bunları görən Saraclı*
*qəmlənib qəlyan çəkir...*
Hər nə isə...

...Balkanlardan, Orta Asiyadan üzü Tiflisə, Borçalıya "Aşıq Qərib"lə bağlı bütün pozitivlərin yanında, təəssüf ki, həmişə bir neqativ də olub: məsələn, Mirzə Levon-Məlik Şahnazaryan kimi bəzi erməni "başbilənlər"inin vaxtilə "Aşıq Qərib"i YUNESKO-ya onlarınkıtək təqdim etmək təşəbbüsləri kimi. Bu da əsasən Tiflis əsilli rejissor Paracanovun 1988-ci ildə M. Y.Lermontovun eyniadlı hekayəsi əsasında çəkdiyi "Aşıq Qərib" filmi ilə bağlı olub; baxmayaraq ki, bəzi erməni "başbilənlər"i Paracanovun müqəvvasını İrəvanın mərkəzində yandırmışdılar ki, bəs deməzsənmi, o, erməni ola-ola "müsəlman filmi"ni niyə çəkib? Yenə də təəssüf ki, "müqəvva yandıranlar" o vaxtlar Süsən-Sünbüldə də defisit deyildi: H.Saraclını istəməyənlər belə xamxəyal xəbər çıxartmışdılar ki, guya o, Paracanovun filmində saz çalıb, halbuki ustad aşıq 1987-ci ildə, yəni filmin çəkildiyi tarixdən bir il əvvəl vəfat etmişdi; əlbəttə, söhbət həmin filmdə ustadın lent yazılarından istifadə edilməsindən gedə bilərdi. Axı filmin bəstəkarı da Sınıq körpünün bəri üzündə, Əyriqarın ətəklərinə yaxın mənim aləmimdə məşhur "300 azərbaycanlı"dan biri olan Cavanşir Quliyev idi. O da bilməmiş olmazdı ki, Hüseyn Saraclı Aşıq Qəribin əsl "ustadnamə"sidir! Görünür, bəzi "müqəvva yandıranlar" sadəcə olaraq H.Saraclının "Tütək səsi"ndə (və bir neçə başqa filmdə də) halal-hümmət haqqı olan saz çalmaq hüququnu yanılmışdılar.

Təki ustad "Aşıq Qərib"də də çalaydı!

...Bu yerdə Aşıq Muraddan eşitdiklərimə keçirəm: "Güdməmişəm şöhrət-şanı dünyada" və "Zülmü boğdum çarığımın bağıyla" – deyən ustad aşıq, əlbəttə, sağlığında çox istəyirdi ki, "Aşıq Qərib" Bakı olsun, Təbriz olsun, İstanbul olsun, təki çəkiləydi və o filmdə o heç çalmasa da olardı! Təki film qalmaqallı alınmayaydı, təki "Aşıq Qərib"lə (elə digər dastanlarla da) bağlı latayır danışılmayaydı. Çünki özünün "Şair Ağacanın Ərzurum səfəri"ndə də dönə-dönə dediyitək, latayırda, nalayiqdə "yeddi kotanı əkmirdi". Onda onun harası "Saz Amanatı" olardı! Yeri gəlmişkən, Hüseyn Saraclı hətta borcunu da latayır, hərzə sözlərlə tələb etməzdi! Elə ədəbli insan idi! Üstəlik, "Aşıq Qərib" onun ozan sənətimiz tərəfindən qorunan müəlliflik hüququ idi...

...Burası da var ki, saz təkcə Tiflisin, Bakının, Təbrizin, Borçalının deyil, eyni zamanda buta, saf məhəbbət mənasında, Vahid Vəhdət Dünyasının, cəmi cahanın "dadi-büsat çömçəsi"dir (Mirzə Qələm arada-sırada "dadi-bidad çömçəsi" də deyir). Və anlamaq dərdi çox böyük olduğundan nadanlar hardan bilsinlər ki, mənəvi aləm, humanizm, ölməz məhəbbət nə deməkdir? H. Saraclı boyda olan bütün sənətkarlar ömürləri boyu həm də bunları anlatmağa çalışıblar. Vəssalam!

... Lermontov sazımızı "türk balalaykası" adlandırmışdı, amma bu sazımızın başını aşağı eləməmişdi ki!

... Sazla, aşıqla bağlı mərhum gürcü bəstəkarı D. Arapişvilinin fikirləri də maraqlıdır: "Allah belə vergiyə kimi layiq görüb?.. Aşığı dinləyən insan nəfəsini gizlətdi. Gizlətdi ki, heç nəyi buraxmasın və yaddaşına köçürərək özü ilə aparsın... cəsur Koroğlu xan əlaltılarını lərzəyə salıb varlıları soyur, var-dövlətini yoxsullara paylayır. Gecələr isə mahnı qoşur. O, o qədər mahnı qoşub ki, sayı göydəki ulduzlar qədərdir".

Bir daha yeri gəlmişkən, "Koroğlu"nun da mahir, həm də çox mahir ifaçısı olan Hüseyn Saraclının özü, bəlkə də Aşıq Cünun misallı, sazı hər dəfə sinəyə basmağa mühüm bir səfərə çıxmaq kimi, məsələn, "yaradıcılıq ezamiyyəti"nə getmək kimi baxırdı və deyirdi:

*Əlimə alanda sədəfli sazı*
*Elə bil səfərə atdanıram mən.*

... Müxtəsəri, Hüseyn Saraclı sazı – bu möhtəşəm dadi-büsat çömçəsini, bu "durnaboğaz" çömçəni elə möhtəşəm mərtəbəyə qaldırmışdı ki, indi bəzi aşağı mərtəbələrə və bəzi aşağı mərtəbədəkilərə adamın yazığı gəlir; çünki rəhmətlik Akif Səməd demiş, "sazın Dədə Qorqud, Yunus Əmrə, Nəsimi, Füzuli, Vaqif kökləri olub", gərək bu köklərin heç olmasa birində yaşayasan. Yoxsa hər yerindən duranın dadi-büsat çömçəsini əlinə alıb sinəsinə basmağı ilə deyil ki?

...Unudulmaz Hüseyn Saraclı o biri çömçə – uzun dəstəkli qaşıq, abgərdən – mənasında, qaravəllilərinin birində deyirdi ki, bir evdə çömçə təkcə evin xanımının əlində idi, amma elə ki, evə iki gəlin gəldi, onda çömçə gah bir gəlinin əlində oldu, gah da o biri gəlinin əlinə keçdi, onda aralıq da yamanca qarışdı. Əlbəttə, bu bir zarafatdır, çünki ustad aşıq özü də yumoru çox sevirdi... Əsas budur ki, hər iki çömçə yonulmuş ağac parçalarından düzəldilsə də, dadi-büsat çömçəsində çalmaq heç bir zaman dovğanı çömçələmək qədər bəsit olmayıb...

*P.S.*

**...Başkeçid tərəflərə baxıram: Əyriqara yaxın Yastıqarın bir döşü uzaqlardan eynən dadi-büsat çömçəsinə oxşayır. Axı hərdən dağların da, eynən Sazlı Abdullanın, Tufarqanlı Abbasın, Saraclı Hüseynin sazlarıtək durub birdən-birə öz-özünə çalınmaları var! Yoxsa yazın bu üzünük vaxtında adamın gözlərinə bu qədər işıq, dizlərinə bu qədər taqət, sinəsinə bu qədər həvəs hardan gələrdi?!**

İBRAHİMXƏLİL

# GÜRCÜSTANIN İLLÜSTRASİYALAŞDIRILMIŞ TARİXİ

*(ƏVVƏLİ ÖTƏN SAYIMIZDA)*

**"Çar David İrana xərac verməyi dayandırdı" başlığı altında itaət etməyən vassalını cəzalandırmaq üçün 1522-ci ildə Şah İsmayılın böyük qoşunla Kartliyə doğru gəlməsi, Kvemo Kartli sərhədində Debeda çayı yaxınlığındakı Ağca qalanı alması, buraya qızılbaş keşikçilərini yerləşdirməsi və cənubdan Kartliyə tərəf gedən yollara bu qaladan nəzarət etməsi barədə danışılır. Sonra qeyd edilir ki, David bu dəfə də sülh danışıqlarına cəhd edir və şaha elçilər göndərir. Lakin şah cavab olaraq Daviddən müsəlmanlığı qəbul etməyi tələb edir. Buna David rədd cavabı verir və döyüşə hazırlaşır. Sonra gürcülərin qızılbaşları Kvemo Kartlidə Teleti kəndi yaxınlığında qarşılaması və döyüşdə X Davidin böyük oğlu şahzadə Luarsabın şücaət göstərməsi, onun sərkərdəliyi ilə gürcülərin qızılbaşların qoşununun hər ki qolunu pozması, düşməni təqib etməsi, lakin döyüşün gürcülərin məğlubiyyəti ilə başa çatması nəql olunur. Tiflis yaxşı müdafiə olunsa da, qızılbaşlar onu ələ keçirməyə müvəffəq olurlar. Qılınc-qalxanı yerə qoymayan çar David partizan döyüşü taktikasına keçir. 1524-cü ildə Şah İsmayıl 37 yaşında dünyasını dəyişir. Çar David İranda başlayan qarma-qarışıqlıqdan istifadə edərək Tiflis üzərinə hücum edir, onu geri qaytarır. Sonra Kvemo Kartliyə gedərək qızılbaşların əsas istinadgahı olan Ağca qalanı alır, Kvemo Kartlini azad edir. Lakin bu azadlıq az bir vaxt davam edir.**

Sonra I Luarsabın taxta çıxmasından, Samsxe atabəyliyindən, atabəylərdən, çar Baqrat və Luarsabın Samsxe atabəyliyini birləşdirməsindən, Otar Şalikaşvilinin Osmanlı sultanından yardım diləməsindən söz açılır.

"Şah Təhmasibin hücumları" başlığı altında onun ilk hücumu, Şah Təhmasib tərəfindən Tiflisin alınması, bu barədə XVII əsr İran tarixçisi İskəndər Münşinin məlumatı, çar Luarsabın döyüş taktikası, Şah Təhmasibin ikinci, üçüncü hücumları, Vardziya kitabxanasının məhv edilməsi, Vardziya monastrının talan edilməsi, İranın mövqelərini möhkəmləndirməsi, Aten qalasının alınması və nəhayət, Şah Təhmasibin dördüncü hücumu barədə məlumat verilir.

"Osmanlının Samsxe atabəyliyinə hücumu" başlığı altında osmanlıların Samsxeni tutmaları, Amasiya sazişi, çar Luarsabın son döyüşü, Luarsabın yuxusu, onun vəfatı, onun varisi şahzadə Svimonun taxta çıxması, Svimonun çarlıq arzusunda olan qardaşı Davidini İran ilə barış yolunda durması, onun XVI əsrin gürcü tibb ensiklopediyası olan «Yadigar Daudi» əsəri, çar Svimonun Şah Təhmasib tərəfindən əsir götürülməsi, 9 il əsirlikdə olması barədə söz açılır.

"Yeni İran-Osmanlı müharibəsi" başlığı altında belə bir məlumat verilib:

«Şah Təhmasibin (1576) vəfatından sonra şahın va-




risləri arasında taxt uğrunda böyük mübarizə başladı. Şah sarayında baş verən intriqalara onun varisi II İsmayıl qurban getdi. Onu xüsusi qəddarlığına görə zəhərlədilər. Taxt şahın növbəti oğlu zəif iradəyə malik Xudabəndəyə (1578-1587) qaldı. O, dövləti idarə etməyə hazır deyildi və asanlıqla saray intriqalarına uyurdu. Xudabəndənin səhvləri İranda daxili tayfa hərc-mərcliyinə səbəb oldu ki, bundan da Osmanlı istifadə etdi və 1578-ci ildə İran ilə yeni müharibəyə başladı. Osmanlı Amasiya sazişi ilə Şərqi Qafqazda İrana verilən hüquqları almağı qarşısına məqsəd qoydu. Səbəb olaraq isə Şah II İsmayılın zəhərlənməsi faktını göstərdi.

1578-ci ildə Osmanlı sultanı Lala Mustafa paşanı Şərqin sərkərdəsi təyin etdi və Gürcüstanın tutulmasını ona tapşırdı".

Gürcüstana gəlməmişdən öncə Lala paşa şah Xudabəndəyə yazdı: "Şah əlahəzrətləri! Mən, Lala Mustafa paşa Osmanlı imperiyası qoşunlarının baş sərkərdəsi, sizə məlumat verirəm ki, qardaşınız İsmayılın zəhərlənməsində əli olanları cəzalandırmaq istəyirəm. Bunun üçün əvvəlcə xristian gürcülərinin ölkəsini tutmalıyam. Sonra, əgər siz əlahəzrətləri yolumu kəsərsə və bu xalqı müdafiə etməyə cəhd göstərərsə, onda mənim əmrimə uyğun olaraq sizinlə də mübarizə aparmağa məcbur olacağam. Əgər mən Osmanılının böyük sultanının qulu, sizi, İran hökmdarını əsir götürsəm, mənim üçün şərəfli olmaz. Bunun əksi olarsa və məni kimi kişini sizi kimi hökmdar əsir götürərsə, onda bütün düynada böyük ada sahib olarsınız. Əgər buyursanız, Şirvana yaxınlaşana kimi buna cavab verin və bu xalqı cəzalandırım".

Lala paşa Qafqazın bütün hakimlərinə, o cümlədən Kaxeti çarı Aleksandreyə, Kartli hakimi Daud xana, İmereti hakimi Manuçar Cağeliyə, Qurieliyə və Dadianiyə məktublar göndərdi. Məktubda "İslam qoşunu" ilə birlikdə İrana qarşı çıxış etməyə çağırıdı.

Sonra osmanıların Samsxe Atabəyliyinə yiyələnməsi, Tiflisin osmanıların əlinə keçməsi, Şərqi Qafqazdan osmanlıların İranı qovması, Çıldır paşalığının yaradılması, Cənubi Gürcüstanın sancaqlara bölünməsi, çar Svimonun Ələmut qalasından azad edilməsi, onun qayıtması, Tiflisin mühasirəsi, osmanlıların Tiflisə yardım etməsi, Svimonun Sinan paşanın əleyhinə çıxması, İranın Qafqazın qaytarılmasına cəhd göstərməsi, Qafqaz xalqlarının osmanlılara qarşı çıxması, İstanbulun cavab zərbəsi, Muxrani çölündə Svimonun osmanlıları məğlub etməsi, Atabəy Manuçar və çar Svimonun birgə mübarizəsi, osmanlıların yeni uğurları, çar Svimonun osmanlıar düşərgəsində olması, Tiflisin alınması, sazişin labüdlüyü, çar Svimonun daxili planları, antiislam koalisiyası və çar Svimon, onun son döyüşü, osmanlıların əsirliyində olması və sair barədə məlumatlar verilmişdir. Kitabın sonunda "Söz çələngi" başlığı altında həmin dövrlərdə işlədilən ərəb, fars, türk sözlərinin izahı verilmişdir.

**Beləliklə, bir daha qeyd etmək lazımdır ki, "Gürcüstanın illüstrasiyalaşdırılmış tarixi" silsiləsindən nəşr olunan bu 15-ci cild gürcü, eləcə də azərbaycanlı oxucusu üçün olduqca maraqlıdır.**

Mirzə MƏMMƏDOĞLU

## AVROPA PARLAMENTİ ALİ MƏKTƏB MƏZUNLARINI BRÜSSELƏ VƏ STRASBURQA TƏCRÜBƏYƏ DƏVƏT EDİR

Avropa Parlamenti (AP) Aİ-nın rəsmi dillərindən birini yaxşı bilən, AP-nin işi ilə maraqlanan universitet məzunlarını AP-nin Brüsseldəki və Strasburqdakı ofislərində təcrübə proqramlarında iştirak etməyə dəvət edir. Namizədlərə üç növ təcrübə təklif olunur. Təcrübə yerlərinin 10%-i üçüncü ölkələrin, o cümlədən Aİ ilə mehriban qonşuluq siyasətinə qoşulan ölkələrin nümayəndələri üçün ayrılır.

Ərizələrin verilməsinin son müddəti 15 may 2016-cı ildir. Uğur qazanmış namizəd Parlamentin iş prosesini daxildən izləmək, habelə bu Avropa təsisatının gündəlik fəaliyyətinə öz töhfəsini vermək üçün nadir imkan qazanır. Parlament aşağıdakı təcrübə keçmə növlərini təqdim edir:

- Müəyyən olunmuş meyarlara cavab verərsə, ola bilsin ki, bütün namizədlər üçün ümumi istiqamətlər;
- Jurnalistika sahəsində peşəkar təcrübəsi olan namizədlər üçün jurnalistika istiqaməti;
- İnsan hüquqlarının müdafiəsi və beynəlxalq hüquq müdafiəsi standartları sahəsində AP-nin işi haqqında biliklərini dərinləşdirməyə marağı olan namizədlər üçün Saxarov mükafatı variantı.

Təcrübənin müddəti namizədin düşdüyü proqramdan asılıdır. AP-də bildiriblər ki, hər il təcrübə proqramında iştirak etmək üçün 25 minə yaxın məzun ərizə verir və onlardan yalnız 600 nəfəri seçilir.

## DƏRS İLİNİN BAŞLANĞICI SENTYABRIN 15-DƏ OLACAQ

Gürcüstanın ümumitəhsil məktəblərində dərs ilinin başlanma tarixi sentyabrın 15-i müəyyən olunub. Gürcüstanın təhsil və elm nazirinin "Gürcüstanın ümumtəhsil müəssisələrində tədris ilinin və tətillərin başlanması və başa çatması haqqında" əmrinə dəyişikliklər 3 sentyabr 2010-cu il tarixində daxil edilib.

Gürcüstanın təhsil və elm naziri Tamar Sanikidzenin əmrində ümumtəhsil məktəblərində dərs ilinin başlanğıcı sentyabrın 15-də, başa çatması isə 10 iyundan sonrakı ilk cümə günü müəyyən edilib. Sentyabrın 15-i bayram və ya istirahət gününə təsadüf etdiyi təqdirdə tədris ili sentyabrın 15-dən sonrakı ilk iş günü müəyyən edilir.

Əgər tədris ilinin başa çatması 10 iyun cümə gününə təsadüf edərsə, tədris ilinin başa çatması 10 iyun tarixinə müəyyənləşdirilir.

## GÜRCÜSTANIN 73 ALİ MƏKTƏBİNDƏ 8 083 MÜƏLLİM ÇALIŞIR

Gürcüstanda 73 ali təhsil müəssisəsi fəaliyyət göstərir, onlardan 21-i dövlət, 52-si isə özəl ali təhsil müəssisəsidir. 2015-2016-cı tədris ilinin başlanğıcında dövlət ali təhsil müəssisələrində cəmi 4731 nəfər, özəl təhsil müəssisələrində isə 3 352 nəfər professor-müəllim heyəti çalışıb. Dövlət ali təhsil müəssisələrində 4731 nəfərlik müəllim heyətinin 1 254 nəfəri tam professor, 2 138 nəfəri professor əvəzi, 886 nəfəri isə professor-assistentdir.

2015-2016-cı tədris ilinin başlanğıcında dövlət ali təhsil müəssisələrinə 25 813, özəl ali təhsil müəssisələrinə isə 15 257 tələbə qəbul olunub.

## GÜRCÜSTANIN PARLAMENT ÇOXLUĞU 82 NƏFƏRDƏN İBARƏT OLDU



Parlament əksəriyyətinin tərkibindən "Milli form" fraksiyasının çıxması nəticəsində çoxluq dağılmayacaq, lakin parlamentdə kvorum toplamaq, qanun və qərarların qəbul olunması üçün hakim komandaya daha çox güc sərf etmək lazım gələcək.

Indiyədək parlament çoxluğunu təşkil edən "Gürcü arzusu" koalisiyasından olan deputatlar 7 fraksiyada birləşmişdi, 88 üzvü var idi, onların arasında koalisiyaya daxil olan siyasi subyektlərin fraksiyası, "Milli hərəkat"dan çıxmış majoritarların da iki fraksiyası var idi.

"Milli forum"un qəbul etdiyi qərardan sonra çoxluqda fraksiyaların sayı 6-ya, üzvlərin sayı isə 82-yə düşüb.

Bununla belə parlamentdə 10 deputatla təmsil olunan respublikaçılar fraksiyası parlament çoxluğunu tərk edəcəyi təqdirdə çoxluq da, azlıq da dağılacaq və parlamentin bütün strukturları dəyişəcək.

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 aprel 2016-ci il
№007 (21)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## TBİLİSİDƏ MİLLİ FOLKLOR FESTİVALI KEÇİRİLİB

Aprelin 6-da Tbilisidə Milli Konservatoriyada “Gürcüstan milli folklor festivalı”nın növbəti mərhələsi keçirilmişdir. Festivalın bu mərhələsində ölkəmizin müxtəlif bölgələrindən gəlmiş 31 nəfər iştirak etmişdir. Sevindirici haldır ki, “Gürcüstan milli folklor festivalı”nın bu mərhələsinə iki soydaşımız da düşmüşdür. Festivalda aşıq Məsim Şamilov Marneulini, tarzən Səlahəddin Piriyev isə Qardabanini təmsil etmişdir. Tərəfimizdən onu da qeyd edək ki, Səlahəddin Piriyev Nəzərli kəndində doğulmuş, tar ifaçılığını da elə doğma kəndində öyrənmişdir. Gənc tarzən hazırda Qardabani rayonundakı Kosalı ictimai məktəbinin 11-ci sinif şagirdidir.

Xatırladaq ki, festivalın ikinci mərhələsinin iştirakçıları bir neçə ay əvvəl Rustavidə keçirilən birinci seçim mərhələsinin qalibləri olmuşlar.



Qeyd edək ki, iyunun 23-də Şota Rustaveli adına teatrın səhnəsində festivalın yekun mərhələsinin keçirilməsi gözlənilir. Bütün iştirakçılara uğurlar arzu edirik.

## İKİ YAŞLI ARİNA REKORDA İMZA ATDI



“Talant Ukrayna” verilişinin növbəti buraxılışında iki yaşlı qızcığaz rekorda imza atıb. 2 yaşlı Arina Şuqaleviç münsifləri, tamaşaçıları və bütün izləyiciləri şoka salıb. Yaşıdları hələ bu yaşda təzə dil açdığı halda bu balaca qız 194 ölkənin paytaxtının adını düzgün deməklə hər kəsi heyrətləndirib. Münsiflər istənilən ölkənin adını soruşduqca Arina onların paytaxtlarını yanılmadan söyləyib.

## KOSALI İCTİMAİ MƏKTƏBİNDƏ ƏNƏNƏVİ GÜLƏŞ TURNİRİ KEÇİRİLMİŞDİR



Qardabani rayonunun Kosalı ictimai məktəbində 1989-cu ilin 9 aprelində baş vermiş faciə nəticəsində həlak olanların xatirəsinə həsr olunmuş ənənəvi sərbəst güləş turnirİ keçirilmişdir.

Güləşçilər tatami üzərinə çıxmamışdan qabaq turnirin rəsmi açılışı olmuşdur. Turnirin açılışında Kvemo Kartili quberniyasının başçısı Paata Xiznaşvili və quberniyanın digər məsul işçiləri, Qardabani bələdiyyəsinin sədri Vaja Qenqaşvili və onun müavini Rəfi Orucov, QardabanI qamqebelisinin müavinləri Zviad Maçabeli, Dünyamalı Hacıyev, İrakli Çelidze, Qardabani idman mərkəzinin direktoru Zura Bendeliani, Qardabani qamqebelesinin Kosalı kəndi üzrə icra nümayəndəsi Suddarxan İsayev, Kosalı ictimai məktəbinin direktoru Mahmud Mehdiyev və kollektivin digər üzvləri, Nəzərli və Kosalı kəndlərinin sakinləri və digər qonaqlar iştirak etmişlər. Açılışda çıxış edənlər 9 aprel qurbanlarının xatirəsini yad edərək, belə bir turnirin düzənlənməsini təqdir etmişlər.

Turnirdə Tbilisi, Rustavi, Qamarcveba, Qardabani və Kosalı komandalarının idmançıları öz güclərini sınamışlar. Kosalı güləşçilərinin məşqçisi Novruz Abdullayev əməkdaşımızla söhbətində yetirmələrinin nəticələrindən razı qaldığını bildirmişdir. Onun sözlərinə görə, komandanın yeddi üzvü müxtəlif çəki dərəcəsində turnirin qalibləri sırasında olmuşlar. Belə ki, 20 kq çəkidə çıxış edən Tural Kərimov birinci, Cavid Kərimov isə ikinci, 38 kq çəkidə Yunis Hüseynalıyev ikinci, Tacir Çobanalıyev isə üçüncü, 47 kq çəkidə Amil İsmayılov birinci, 59 kq çəkidə Anar Hacıyev ikinci və 66 kq çəkidə Seymur Ömərov birinci yerə çıxmışdır.

Qaliblər turnirin diplom və medalları ilə, eləcə də xatirə hədiyyələri ilə mükafatlandırılmışlar.



## YAPONİYADA BARMAQ İZLƏRİ KREDİT KARTLARINI VƏ NƏĞD PULLARI ƏVƏZ EDƏCƏK




Yaponiya hökuməti tezliklə ölkə ərazisində tamamilə yeni texnologiya tətbiq etmək niyyətindədir. Bu yenilik kredit kartlarından, smartfonlardan və ya nəğd puldan istifadə etmədən bazarlıq etməyə imkan verəcək.

Qeyd olunur ki, yapon alıcılarına daktiloskopik skanyer vasitəsilə yalnız barmaq izlərini şəxsiyyətlərilə eyniləşdirmək lazım gələcək. Bu barədə Yaponiya KİV-nə istinadən Aksakal TV məlumat yayıb.

Məlumatda o da qeyd olunur ki, 2016-cı ilin yayından başlayaraq Yaponiyada bütün turistlər yapon mağazalarında, eləcə də otel və restoranlarda öz barmaq izlərinin köməyilə ödəniş edə biləcəklər. Bunun üçün Yaponiyanın aeroportlarında köşklər qoyulacaq, arzulayan turistlər bu köşklərdə öz şəxsi ödəniş məlumatlarını qeyd etdirə biləcəklər.

## TESLA MOTORS ELEKTRİKDOLDURMA MƏNTƏQƏLƏRİNİN SAYINI ARTIRIR




Tesla Motors avtomobil şirkəti cari ilin sonunadək Rusiyada beş elektrikdoldurma stansiyası açmaq niyyətindədir. Bu barədə aprelin 10-da şirkətə istinadən Rambler News Service məlumat yayıb.

Güman edilir ki, bu cür məntəqələr Tver, Moskva, Pskov və Leninqrad vilayətlərində, eləcə də Böyük Novqorod yaxınlığında meydana çıxacaq.

Bundan əlavə Tesla Motors bir çox Avropa ölkələrində, o cümlədən də Türkiyə, Rumıniya, Polşa, habelə keçmiş SSRİ ölkələrində – Ukrayna, Latviya və Litvada elektikdoldurma məntəqələri açmağı planlaşdırır.

Tesla Motors-un başçısı İlon Maks aprelin 1-də ən ucuz elektrokarları nümayiş etdirib. Bu elektrokarların qiyməti 35 min dollardan başlayacaq.

## HAVANI SUYA ÇEVİRƏN BUTULKA YARADILDI




Avstraliyalı sənaye dizayneri Kristof Retezar havadan su istehsal edən “Fontus Airo” və “Fontus Ryde” butulkalarını satışa çıxarıb. KİV-nin yaydığı məlumata görə, Kristof Retezarın bu ixtirası ilk növbədə səyahət sevənlər üçün düşünülüb. Belə ki, “Fontus Airo” modeli piyada gəzintilər, “Fontus Ryde” modeli velosipedçilər üçün nəzərdə tutulub.

Cihaz aşağıdakı kimi çalışır: Hava qapaqda soyuyur, kondensasiya olunur, filtrdən keçir və butulkaya verilir. “Fontus Airo” butulkası avtonom enerji mənbəyi olan günəş batareyası ilə təchiz olunub. Xüsusi texnologiya sayəsində cihazın sahibi daimi olaraq təzə mineral su ilə təmin olunacaq. Layihə “Indiegogo”da yerləşdirilib. Bu butulkaları müvafiq olaraq 200 dollara və 160 dollara əldə etmək mümkündür.

Təsisçi:
*“Gürcüstan gənclərinə Yardım və Maarifləndimrə Təşkilatı”*

*Redaktor:*
Afiq Muxtaroğlu
*Yayım Direktoru:*
Hacı Bəkiroğlu

Ünvan: Qardabani şəh, Kolxoz küç, 4
Tel/ (+995) 595 92 25 70
599 54 12 92
email: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir.
Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər.
Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır.
Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.